DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev
www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
№ 10 (339) / OKTYABR 2019-CU İL




Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

...İkili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

**Prezident İlham Əliyev**
*Bakıda keçirilmiş Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündəki nitqindən*
25 oktyabr 2019-cu il

### "MƏNƏVİ DƏYƏRLƏR VƏ DÖVLƏT SİYASƏTİ" MÖVZUSUNDA KONFRANS TƏŞKİL EDİLİB



Səh. 2

### "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"



Səh. 4

### "DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL"



Səh. 5

### "BALAKHANI OPERATING COMPANY" ŞİRKƏTİNDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



Səh. 6

### DÜNYADA DİNLƏR RƏQƏMLƏRİN GÖZÜ İLƏ




Səh. 7

### "Daha peyğəmbərlər gəlməyəcəksə də, Tanrı göndərişləri ara vermir və verməyəcək"



Səh. 8-9

### «SƏRT GÜC»ÜN YUMŞALMASI: FƏRQLİ METOD, EYNİ MƏQSƏD



Səh. 10

### ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA DİN AMİLİ



Səh. 11

# "MƏNƏVİ DƏYƏRLƏR VƏ DÖVLƏT SİYASƏTİ" MÖVZUSUNDA KONFRANS TƏŞKİL EDİLİB




Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının iki illiyi münasibətilə oktyabrın 10-da "Mənəvi dəyərlər və dövlət siyasəti" mövzusunda konfrans keçirilib.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun ötən iki il müddətində gördüyü işlərdən, qarşıya qoyulan vəzifələrdən danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu ölkəmizdə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə yaradılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda çıxış edərək Fondun kollektivini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar diləyib. Fondun yaradılmasını Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm hadisə kimi dəyərləndirən Mübariz Qurbanlı deyib: "Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği sahəsində atılan önəmli addımdır. Əlbəttə, xalqımıza məxsus dini, mənəvi, tarixi dəyərlər müxtəlif qurumlar tərəfindən öyrənilir, tədqiq və təbliğ olunur. Lakin bu istiqamətdə ümumi işləri həyata keçirən qurumun yaradılmasına da ehtiyac var idi".

Komitə sədri bildirib ki, bu qurumun fəaliyyətində gənc nəslin zərərli vərdişlərdən uzaqlaşdırılması istiqamətində görülən işlər mühüm yer tutur. O, Fondun təşəbbüsü ilə reallaşdırılan layihələrin cəmiyyətimizin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb, ötən iki ildəki fəaliyyətin ən yüksək qiymətə layiq olduğunu bildirib: "Hesab edirəm ki, gələcəkdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə birgə ölkə xaricində də mənəvi dəyərlərimizin təbliği ilə bağlı işləri həyata keçirmək mümkündür. Müasir dünyamızda hər bir dövlət, xalq öz dəyərlərini, tarixini, gücünü qoruyub saxlamağa çalışır. Azərbaycan xalqı hər zaman öz dəyərlərinə sadiq olub və onu qoruyub. Bizim ən böyük dəyərlərimiz müstəqilliyimizdir, dövlət atributlarımızdır, adət-ənənələrimizdir, dinimizdir".

Mənəvi dəyərlərimizin qorunmasının, gələcək nəsillərə düzgün çatdırılmasının mühüm vəzifə kimi qarşıya qoyulduğunu deyən Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsul işçisi Əliheydər Zülfüqarov Mənəvi Dəyərlərin Təbliği Fondunun iki il ərzində müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, bu qurumun fəaliyyətində xalqımıza məxsus zəngin mənəvi dəyərlərin təbliği işi əsas istiqamətlərdən olub. Bu istiqamətdə gənclərlə aparılan işi, ölkəmiz üçün əlamətdar günlərdə keçirilən tədbirləri, məcburi köçkünlərlə görüşləri xüsusi qeyd etmək lazımdır.

Konfransda çıxış edən Fondun Himayəçilər Şurasının üzvü, Milli Məclisin deputatı Sahibə Qafarova dünyada gedən qloballaşma prosesinin müsbət və mənfi istiqamətlərindən danışaraq bildirib ki, bu gün xalqların mənəvi dəyərlərinin assimilyasiya olması müşahidə olunur. Fondun fəaliyyətinin cəmiyyətimiz üçün olduqca faydalı olduğunu söyləyən Milli Məclisin deputatı bildirib ki, gənclərin mənəvi dəyərlərimizlə bağlı maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Fondun Himayəçilər Şurasının üzvü, Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli Fondun qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiyini diqqətə çatdırıb. Xalqımızın tarixən mənəvi dəyərlərə üstünlük verdiyini söyləyən akademik gənc nəslin düzgün formalaşmasında mənəvi dəyərlərin təbliğinin və təşviqinin vacibliyini qeyd edib.

Tədbirdə çıxış edən Himayəçilər Şurasının üzvü, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Mehriban İmanova, İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov, Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Elşad Əliyev, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Asif Cahangirov, "Zəfər: Şəhid ailələrinə dəstək" ictimai birliyinin rəhbəri, Aprel şəhidi Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova da Fondun iki il ərzindəki fəaliyyətini yüksək qiymətləndiriblər. Bildirilib ki, dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasında, mənəvi dəyərlərin qorunmasında və inkişafında, dövlət-din münasibətləri sahəsində Fondun gördüyü işlər çox mühüm əhəmiyyət kəsb edir.

## MÜBARİZ QURBANLI: "ERMƏNİLƏRİN YUXARI GÖVHƏRAĞA MƏSCİDİNDƏKİ "TƏMİR İŞLƏRİ" TARİXİ SAXTALAŞDIRMAQ MƏQSƏDİ DAŞIYIR"

"Ermənilərin Şuşada yerləşən tarixi Yuxarı Gövhərağa məscidində təmir adı altında gördükləri işlər bizim tariximizi saxtalaşdırmaq məqsədi daşıyır".

Bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Komitə sədri ermənilərin Azərbaycana məxsus tarixi abidələri məqsədyönlü şəkildə dağıtdıqlarını bildirib: "Biz bunu qətiyyətlə pisləyirik. Bu, beynəlxalq miqyasda mənəvi irsin qorunması ilə bağlı qəbul edilmiş konvensiyalara, müxtəlif paktlara ziddir. Bizim komitə tərəfindən də bu mövqe açıq şəkildə bildirilib. Bizi məyus edən odur ki, ermənilərin bu mənhus fəaliyyətində bizə dost və qardaş ölkə olan İran İslam Respublikasının hansısa şirkəti də iştirak edir. Araşdırma zamanı məlum olub ki, həmin şirkətin rəhbəri Yerevanda memarlıq təhsili alıb. Bu məni də təəccübləndirir ki, Yerevanda ona nə öyrədə bilərlər? Yəqin buna öyrətdikləri elə bu kimi hərəkətlər olub. Biz bu addımı pisləmişik. Çünki İran İslam Respublikası bizə dost və qardaş ölkədir. İslam Əməkdaşlıq Təşkilatında da Ermənistanın işğalçı siyasəti qətiyyətlə pislənilib. İslam dininə aid tarixi abidələrin üzərində ermənilərin bu cür əməl törətməsi bütün islam aləmi tərəfindən pislənilməlidir. Ermənilər nə vaxtdan islam dəyərlərinə qiymət veriblər?!".

M.Qurbanlı qeyd edib ki, ermənilər təmir adı altında Azərbaycan irsinə xələl gətirməyə çalışırlar: "Ermənilərin həm siyasi, həm hərbi, həm də mənəvi vandalizmi hər zaman özünü göstərib. Ermənilərin vandal hərəkətləri əslində insanlıq əleyhinə törədilib. Əgər tarixə fikir versək görərik ki, onlar İrəvan xanlığına məxsus tarixi abidələrimizi dağıdıblar. Bu fəaliyyətlərini işğal olunmuş ərazilərimizdə də davam etdirirlər. Ona görə də ermənilərin hansısa məscidi bərpa adı altında İslama münasibətlərini göstərmək cəhdləri saxtakarlıqdan başqa bir şey deyil. Bu saxtakarlıq adı altında Azərbaycana aid abidələrin özgəninkiləşdirilməsi prosesi gedir. Onların bu vandal hərəkətlərini qətiyyətlə pisləyirik".

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜB



Oktyabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) tələbələrlə görüşüb.

Tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov keçirilən görüşü universitetin həyatında əlamətdar hadisə kimi dəyərləndirib. Eyni zamanda, rektor Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin maarifləndirmə istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizin müstəqilliyinin bərpası xalqımız üçün böyük dəyərdir: "Tariximizlə qürur duymağa haqqımız var. Azərbaycan xalqı hər zaman öz mənəvi dəyərlərini qoruyub saxlamağı bacarıb", - deyə o əlavə edib. Respublikamızda mövcud olan dövlət-din münasibətləri haqqında da geniş məlumat verən DQİDK sədri vurğulayıb ki, bu sahədə Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu nümunəvi siyasət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Xurafatın təsirinə düşməməsi üçün gənclərin dini bilgiləri doğru mənbələrdən əldə edilməsinin vacibliyinə toxunan Mübariz Qurbanlı bu istiqamətdə tələbələrə tövsiyələrini verərək onların yad dini ideologiyaların təsirindən qorunması üçün mili-mənəvi dəyərlərə bağlı olmalarının önəmini vurğulayıb.

Sonda Komitə sədri Mübariz Qurbanlı tələbələrin suallarını cavablandırıb.

# MÜBARİZ QURBANLININ "HEYDƏR ƏLİYEV: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ MƏNƏVİ DƏYƏRLƏR" ADLI KİTABI NƏŞR OLUNUB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər" adlı kitabı nəşr olunub.

Kitabda Azərbaycançılıq ideyasının mədəni, mənəvi və tarixi kökləri, sovetlər dövründə Azərbaycançılığa münasibət, Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində təsbit olunması, müstəqil dövlət quruculuğu prosesində bu ideyanın təbliğ və təşviq edilməsindən bəhs edilir.

Üç fəsildən ibarət olan kitabda M.Qurbanlı Azərbaycançılıq ideologiyasında dini-mənəvi dəyərlərin mühüm yer tutduğu, milli-mənəvi dəyərlərin xalqın mənəviyyatı, dünyagörüşü, həyat və düşüncə tərzinin ayrılmaz hissəsini təşkil etdiyi, ideologiyanın tərkib hissəsində İslam dini dəyərlərinin mühüm yeri və əhəmiyyəti kimi məsələlərə toxunub.

Müəllif kitabın III – "Mənəvi dəyərlər Azərbaycançılıq ideologiyasının hissəsi kimi" adlı fəslində Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışını dini dəyərlərə münasibətdə, dövlət-din münasibətlərində yeni mərhələnin başlanğıcını qoyduğunu, ölkədə sabitliyin və tərəqqinin əsas amil olduğunu nəzərə alaraq multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini müəyyənləşdirdiyini vurğulayıb. M.Qurbanlı müstəqilliyimizin bərpasından sonra xalqın yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə sağlam cəmiyyətin formalaşmasına təsir göstərmək, onun tarixi yaddaşını, milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürmək kimi tarixi vəzifəni üzərinə götürən Ümummilli Lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi missiyadan geniş şəkildə bəhs edib.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan kitab dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində çalışan mütəxəssislərə, eləcə də siyasi şərhçilərə, gənc tədqiqatçılara faydalı ola bilər.

# BAKIDA "XXI ƏSRDƏN BAXIŞ: DÖVLƏT, CƏMİYYƏT VƏ DİN" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Oktyabrın 23-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "XXI əsrdən baxış: dövlət, cəmiyyət və din" mövzusunda konfrans keçirilib.

DQİDK sədrinin müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən konfransda giriş sözü ilə çıxış edən Komitə sədri Mübariz Qurbanlı bildirib ki, hazırda din-cəmiyyət münasibətinə, eləcə də fərdlərin dinə münasibətinə nəzər saldıqda, ilk növbədə, XXI əsrin çağırışları və təhdidləri üzərində dayanmaq lazımdır. Bu əsrin çağırışları və təhdidləri əvvəlki dövrdən fərqlənir. XXI əsr texnologiya əsridir, bu əsr yeniliklər yaratmaqla bərabər özü ilə problemlər və təhdidlər də gətirir. İndi planetdə insanların sayı 7,8 milyard nəfərə çatır. Dünyada baş verən artım müəyyən problemləri ortaya çıxarır. Bu amil təbii resurslarda, su, qida ehtiyatlarında çatışmazlıqlar yaradır. Buna görə də hazırda 2 milyarda yaxın insan gündəlik qida rasionuna olan tələbatını ödəyə bilmir, yəni yarıac vəziyyətdədir. Bütün bunlar insanların kütləvi şəkildə miqrasiyasına səbəb olur ki, bu da dünya üçün müəyyən təhdidlər yaradır. Qlobal miqyaslı bu problemlər və dəyişikliklər insanların dini inancına da təsir edir. Xristian cəmiyyətlərinə aid olan ölkələrdə insanların dinə münasibətində dəyişikliklər baş verib. Əgər 100 il əvvəl insanların kilsələrə kütləvi getməsi müşahidə edilirdisə, indi bu, özünü göstərmir.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, Azərbaycan xalqı həmişə bölgədə dostluğun, qardaşlığın möhkəmləndirilməsinə, insanlar arasında milli-dini mənsubiyyətindən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasına misilsiz tarixi töhfələr verib. Başqa dinlərə münasibətdə dözümlülük, onlarla yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq bizim milli əxlaqi dəyərlərimizin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan tarixən ölkəmizdə İslam dini ilə yanaşı, Xristianlıq, İudaizm və başqa dinlərə mənsub insanlar da məskunlaşmış, sülh və əmin-amanlıq şəraitində yaşamış və indi də bu ənənə uğurla davam etdirilir.



Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri Simran Həsənov İslam dininin prinsiplərinə diqqət çəkərək deyib ki, İslamda demokratik və hüquqi dövlət quruculuğunun prinsiplərində olduğu kimi, məcburiyyət yoxdur. Digər səmavi dinlərin nümayəndələrinə qarşı hörmətlə yanaşmaq, dövlətçiliyə sədaqət, cəmiyyətdə sülhün və əmin-amanlığın bərqərar olması İslamın da əsas qaydalarından biridir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxışında dinin sırf inancla bağlı bir məsələ olduğunu və bunun da fərdi xarakter daşıdığını qeyd edib. O bildirib ki, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni masa arxasında əyləşirlər və daim dialoqa açıqdırlar.

Konfrans işini dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlər, həyata keçirilən layihələr, eləcə də dinin cəmiyyət həyatında, onun mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu barədə müzakirələrlə yekunlaşdırıb.

# DQİDK RƏHBƏRLİYİ BÖLGƏLƏRDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov Lerik, oktyabrın 29-da DQİDK sədri Mübariz Qurbanlı Cəlilabad, Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov isə Yardımlı rayonunda vətəndaşları qəbul ediblər.

Qəbuldan əvvəl DQİDK-nın sədri Mübariz Qurbanlı və Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, böyük rəhbərin adını daşıyan Mərkəzdə Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Qırxa yaxın vətəndaşın iştirak etdiyi qəbullar zamanı müraciətlər, əsasən, dini icmaların dövlət qeydiyyatı, dini icmaların fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Oktyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və səfirliyin yeni dini işlər üzrə müşaviri Zəki Yavuzyılmaz ilə görüşüb.

Müşavirə yeni işində uğurlar arzulayan M.Qurbanlı bütün sahələrdə olduğu kimi, din sahəsində də iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. Qeyd edib ki, bu əlaqələrin inkişafında Türkiyənin ölkəmizdəki səfirliyinin, o cümlədən Din İşləri üzrə Müşavirliyin böyük xidmətləri var.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Erkan Özoral Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığının, ölkəmizdə dini etiqad azadlığının təmin edilməsinin və dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının təqdirəlayiq hal olduğunu bildirib.

Görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında nəşr etdirdiyi kitablar təqdim edilib.

* * *

Elə həmin gün Dövlət Komitəsinin sədri "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri Tural Gəncəliyev ilə görüşüb.

Görüş zamanı Azərbaycanın tolerantlıq və multikulturalizm sahəsində təcrübəsini yaymaq və təbliğ etmək, eləcə də bu dəyərlərin beynəlxalq aləmdə təşviqində Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, o cümlədən dini konfessiyalarla birgə layihələrin həyata keçirilməsinin vacibliyi və perspektivləri müzakirə olunub. Eyni zamanda Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılmasında birgə əməkdaşlığın önəmi vurğulanıb.

* * *

Oktyabrın 30-da Dövlət Komitəsinin sədri ölkəmizdə səfərdə olan ABŞ yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb.

Qonaqları salamlayan Mübariz Qurbanlı onlara Komitənin fəaliyyət istiqamətləri, eyni zamanda Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə bütün dini konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində birgə yaşadığını söyləyən M.Qurbanlı Yəhudiliyin Azərbaycanda qədim tarixə malik olduğunu vurğulayıb. Ölkəmizdə Dağ, Avropa və Gürcü yəhudi icmalarının, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edən Komitə sədri Azərbaycanda müsəlman dini icmalarla yanaşı, qeyri-müsəlman dini icmalara dövlət tərəfindən maddi yardımın ayrılmasının ənənə halını aldığını diqqətə çatdırıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Amerika Yəhudi Komitəsində Rusiya və Avrasiya işləri üzrə direktor Samuel Kliger Azərbaycanın yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr içərisində ön sıralarda olduğunu qeyd edib.

Azərbaycanda yəhudi dini icmalarına, o cümlədən yəhudi irsinin qorunmasına göstərilən diqqət və qayğıya görə məmnunluğunu ifadə edən ABŞ və Kanada Buxara Yəhudiləri Konqresinin koordinatoru Rafael Nektarov təmsil etdiyi qurum barədə məlumat verib. Təşkilatın öz fəaliyyətində daim Azərbaycanın mövqeyini dəstəklədiyini və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün bütün mümkün səyləri, əməkdaşlığı həyata keçirməyə niyyətli olduqlarını deyib.



Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərin də müzakirə olunduğu görüşün sonunda nümayəndə heyətinin üzvlərinə Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, Azərbaycandakı dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

* * *

Oktyabrın 4-də DQİDK sədrinin müavini Səyavuş Heydərov Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox ilə görüşüb.

Sədr müavini dini durumun, eləcə də dini müxtəlifliyin tənzimlənməsi sahəsində əldə olunan nailiyyətlərdən danışaraq qeyd edib ki, Azərbaycanda dünyaya örnək ola biləcək multikultural dəyərlər sistemi və modeli formalaşıb. Müxtəlif etnik mədəniyyətlər arasında ənənəvi birgəyaşayış, qarşılıqlı hörmət prinsiplərinə söykənən bu model ilə Azərbaycan sivilizasiyalararası və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısına çevrilib.

Ölkəmizdə mövcud olan çoxəsrlik multikultural mühitlə əyani şəkildə tanış olduğunu deyən Markus Şox respublikamızdakı müxtəlif dini icmalarla sıx əməkdaşlığın, dostluğun təqdirəlayiq olduğunu vurğulayıb.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"



## Yevlaxda

Oktyabrın 17-18-də Yevlaxda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Yevlax Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Yevlax ŞİH başçısının birinci müavini Qənimət Qaraşov tədbiri giriş sözü ilə açaraq xalqımızın tarixən öz milli-mənəvi dəyərlərinə, o cümlədən dininə bağlı olduğunu qeyd edib.

Yevlax ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elnarə Məmmədova isə çıxışında dövlət-din münasibətləri istiqamətində görülən işlərdən danışıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, müasir dünyada sosial şəbəkələr məkrli insanların, destruktiv qüvvələrin, bədxah məqsədlərə qulluq edənlərin ən çox istifadə etdiyi və geniş kütlələrə təsir etməyə, onları düzgün olmayan istiqamətlərə yönləndirməyə cəhd göstərdiyi virtual məkana çevrilib. Bəzi radikal, məzhəbçi dini qruplar sosial şəbəkələr, internet vasitəsilə öz təbliğatlarını davamlı şəkildə apararaq, ölkəmizlə bağlı çirkin, bədxah niyyətlərini həyata keçirmək üçün çalışırlar. Sədrin birinci müavini diqqətə çatdırıb ki, bu işdə din xadimlərinin üzərinə böyük vəzifə, məsuliyyətli iş düşür.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Namiq Əliyev isə çıxışında İslam həmrəyliyinin təbliğində, o cümlədən dini radikalizmə qarşı mübarizədə dini icmaların yaxından iştirak etməsinin önəminə toxunub.

## Xaçmazda

Analoji tədbir oktyabrın 24-25-də DQİDK və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Xaçmazda baş tutub.

Dini icma sədrləri, din xadimləri, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Xaçmaz RİH başçısının birinci müavini İlhamə Nəzərova rayondakı dini vəziyyət barədə məlumat verib və qeyd edib ki, belə tədbirlərin keçirilməsi dini maarifləndirmə işinin təşkili baxımından olduqca əhəmiyyətlidir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdəki tolerant və multikultural ənənələrə söykənən nümunəvi dövlət-din münasibətlərindən danışaraq bildirib ki, bu sahənin tənzimlənməsini reallaşdıran qanunvericilik aktları olduqca dolğundur və demokratik prinsiplərə əsaslanır. O qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasəti



cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sədrin birinci müavini, eyni zamanda çıxışında dindarları XXI əsrin texnoloji imkanlarından yararlanmağa səsləyib. O bildirib ki, xüsusilə sosial şəbəkələrdən aktiv istifadə multikultural və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri olan dini radikalizmlə mübarizədə effektiv və müasir yoldur. Din xadimləri, ilahiyyatçılar, dini icmalar bu materialları yayan qara qüvvələrə qarşı mübarizəni yalnız məsciddə yox, həm də sosial mediada aparsalar, daha tez və effektiv nəticə əldə etmiş olarlar.

Xaçmaz rayonu Qaraqurtlu kənd məscidi dini icmasının sədri Mübariz Abdullayev təmsil etdiyi qurumun fəaliyyətindən bəhs edib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Orxan Maşayev isə yad dini ideologiyaların qarşısının alınmasında həyata keçirilən tədbirlərin əhəmiyyəti, eləcə də nəticələri barədə danışıb.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

# "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR"

Oktyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Cəlilabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda ikigünlük regional konfrans keçirilib.

Regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Cəlilabad Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.



Tədbirdə əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub.

Konfransı giriş sözü ilə açan Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov rayondakı dini durum barədə məlumat verərək qeyd edib ki, hər bir vətəndaşa dini inancını rahat şəkildə yerinə yetirə bilməsi üçün lazımi şərait yaradılıb.

DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır. Ulu Öndərin əsasını qoyduğu siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycan bütün dünyada demokratik, hüquqi və dünyəvi dövlət kimi tanınır. Eyni zamanda, Azərbaycan bir çox millətlərin və konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

Çıxışında dini radikalizm, xurafat kimi bəlalarla mübarizənin vacibliyinə də diqqət çəkən Mübariz Qurbanlı qeyd edib ki, dini radikal qrupların yaradılmasında məqsəd müəyyən xarici siyasi və geopolitik maraqları həyata keçirməkdir. Dinin siyasiləşməsinin doğurduğu acı nəticələri biz bu gün Yaxın Şərqdə baş verən hadisələrdən aydın görürük. Komitə sədri vurğulayıb ki, ölkədəki dini etiqad azadlığından sui-istifadə edilərək xalqımızın yüzillər boyu yaşatdığı tolerantlıq ənənələrinə xələl gətirilməsi yolverilməzdir. Azərbaycanda dindən siyasi məqsədlər naminə istifadə etməyə çalışanlara qarşı həm inzibati, həm də ideoloji müstəvidə mübarizə aparılır.

Dinə dövlət qayğısından bəhs edən digər natiqlər bildiriblər ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür, Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir.

Konfrans işini oktyabrın 30-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.

# "MÜASİR AZƏRBAYCANDA MULTİKULTURALİZM HARMONİYASI VƏ TOLERANTLIQ NÜMUNƏSİ"

Oktyabrın 29-da Bakıda Azərbaycan Bibliya Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə "Müasir Azərbaycanda multikulturalizm harmoniyası və tolerantlıq nümunəsi" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Azərbaycandakı multikulturalizm mühitindən və Azərbaycan Bibliya Cəmiyyətinin fəaliyyətindən bəhs edən film nümayiş olunub.



Konfransda çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, dinlərarası harmoniya bir çox ölkələrdə mövcuddur. Azərbaycanı fərqləndirən cəhət tarixən formalaşan bu mühitin xalqın həyat tərzinə və dövlət siyasətinə çevrilməsidir. Azərbaycanda formalaşan bu modelə maraq daha da artır. Dünya birliyi başa düşür ki, nə qədər güclü iqtisadiyyata, hərbi potensiala malik olsalar da, mənəvi dəyərlər sistemi pozularsa, dünyada sülhü, birliyi, həmrəyliyi əldə etmək qeyri-mümkün məsələdir.

Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, Rus Provaslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri "Yevangelist Xristian Baptistlərin Kilsəsi" dini icmasının sədri İlya Zençenko çıxışlarında bildiriblər ki, Azərbaycan burada yaşayan bütün fərqli dinlərə, müxtəlif mədəniyyətlərə məxsus xalqların evidir. Burada müxtəlif dinlər sülh və dostluq şəraitində yaşayır. Çıxışçılar ölkəmizdə tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatmasının dövlət başçımızın apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsi olduğunu qeyd ediblər.

Sonda "Azərbaycan Bibliya Cəmiyyəti"nin sədri Rasim Xəlilov cəmiyyətin son illərdəki fəaliyyətindən bəhs edən təqdimat nümayiş etdirib.

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL"

**10 oktyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağsu Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Ağsuda;

**11 oktyabr** – DQİDK və Oğuz RİH-in birgə təşkilatçılığı ilə Oğuzda;

**24 oktyabr** – DQİDK və Bakı şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) birgə təşkilatçılığı ilə Bakıda;

**28 oktyabr** - DQİDK və Astara RİH-in birgə təşkilatçılığı ilə Astarada;

**29 oktyabr** – DQİDK və Yardımlı RİH-in birgə təşkilatçılığı ilə Yardımlıda "Dünyəvi dövlətdə din və təhsil" mövzusunda seminar-treninq keçirilib.

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gənclərinin iştirakı ilə baş tutan tədbirlərdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Ağsu RİH başçısının birinci müavini Rasim Novruzov, Oğuz RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Ayaz Ağayev, BŞTİ-nin müdir müavini Hüseyn Əsgərov, Yardımlı RİH başçısının müavini Əfsanə Məmmədova, Astara RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Oğuz Rayon Təhsil Şöbəsinin müdiri Anar Məcidov, Astara Rayon Təhsil Şöbəsinin müdir müavini Sultanağa Baxşıyev, Yardımlı Rayon Təhsil Şöbəsinin müdiri Manaf Səmədzadənin məruzələri dinlənilib.



Çıxışlarda milli-mənəvi dəyərlərin təbliği və təşviqində maarifləndirmə tədbirlərinin keçirilməsinin önəminə toxunulub. Şagirdlərə "Həyat bilgisi" fənninin tərkibində dini biliklərin verilməsi, onların bu mövzu ilə bağlı məlumatlandırılmasının əhəmiyyəti vurğulanıb. Bildirilib ki, milli-mənəvi dəyərlərin təbliği cəmiyyət, dövlət və ailə üçün faydalı olan nümunəvi vətəndaş formalaşdırılması, dini radikallığın zəiflədilməsi və cəmiyyətimizdə tolerantlığın artırılması baxımından olduqca önəmlidir. Qeyd edilib ki, dini dözümlülük ənənələrinin və dini rəngarəngliyin əsaslarının qorunub saxlanılması Azərbaycanın dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallara cavab verilib.

# "BALAKHANİ OPERATİNG COMPANY" ŞİRKƏTİNDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



Oktyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və "Balakhani Operating Company" şirkətinin birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik məsələləri" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, şirkətin icraçı direktoru Sabir Nəzərov və əməkdaşları iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filminin nümayişindən sonra dini ekstremizmin fəsadlarından, eləcə də dini radikal qrupların fəaliyyətindən də danışan sədr müavini deyib ki, bu gün dini radikal qrupların qarşılarına qoyulmuş əsas hədəf insan və vicdan azadlığı, ictimai təhlükəsizlik, vətənpərvərlik ruhu, dinlər və məzhəblərarası vəhdət və s. kimi dəyərləri məhv etməkdir. Səyavuş Heydərov vurğulayıb ki, dini radikalizmin cəmiyyətdə özünə yer tapmasının və yayılmasının qarşısının alınmasında milli-mənəvi dəyərlərə sıx şəkildə bağlılıq mühüm rol oynayır.

Azərbaycanda ictimai-siyasi və dini durumun sabit olduğunu diqqətə çatdıran Dövlət Komitəsinin sədr müavini şirkət əməkdaşlarını DQİDK-nın sifarişi əsasında çəkilən "Şəhadət" sənədli filmi barədə də məlumatlandırıb. Bildirib ki, filmə baxarkən Vətən uğrunda şəhid olmuş fədakar, qəhrəman hərbi qulluqçularımız bizi qürurlandırır. S.Heydərov vurğulayıb ki, filmdə bəhs edilən aprel döyüşləri ölkəmizdə həmrəyliyi, birliyi və vətənpərvərliyi daha da gücləndirib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, milli-mənəvi dəyərlərin təbliği, eyni zamanda gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyətləri, təhsil şöbələri, hüquq mühafizə orqanları və digər qurumların nümayəndələri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK və yerli qurumların birgə təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Şıxakəran kənd tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər və onların fəsadları" mövzusunda; həmçinin Aşağı Nüvədi qəsəbə tam orta məktəbində "Mənəvi dəyərlərin təbliğinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH) və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Danaçı kənd 1 №-li tam orta məktəbində "Gənclər dini radikalizmə qarşıdır" mövzusunda; DQİDK və Ağstafa RİH-in birgə təşkilatçılığı ilə "Dini maarifçiliyin təşkilində qadınların yeri və rolu" mövzusunda;

**3 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Hənifə kənd tam orta məktəbində "Dini radikalizm və onun fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli RİH-in birgə təşkilatçılığı ilə ehsan süfrələrinin sadələşdirilməsi ilə bağlı; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı şəhəri Sakit Tağıyev adına 4 saylı tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizədə din faktoru" mövzusunda;

**7 oktyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərin təbliği və dini icmalar" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Yardımlı şəhəri Heydər Əliyev Mərkəzində "Gənclərin narkomaniya və onun təzahürlərindən qorunmasında dini icmaların və din xadimlərinin rolu" mövzusunda;

**9 oktyabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Biləsuvar şəhər 4 nömrəli tam orta məktəbdə "İslamda insan hüquqları, gender bərabərliyi və gənclərin narkotik vasitələrdən, zərərli vərdişlərdən qorunması" mövzusunda;

**10 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı şəhəri 3 saylı tam orta məktəbində "Dini radikalizm və narkomaniya ilə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən birgə imzalanan Tədbirlər Planına əsasən Dövlət Komitəsinin İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz və milli mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Talalar kənd 2 saylı tam orta məktəbində "Dini radikalizm cəmiyyət üçün təhlükədir" mövzusunda; DQİDK, Qax RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qax rayon İlisu kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizədə mənəvi dəyərlərimizin yeri və rolu" mövzusunda;

**11 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə M.Cəbrayılov adına Şovu kənd tam orta məktəbində "Gənclərin radikal dini təsirlərdən qorunması" mövzusunda;

**15 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Yuxarı Çardaxlar kənd tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərlə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK və Xəzər RİH-in birgə təşkilatçılığı ilə "Uşaq və yeniyetmələrin mənəvi inkişafı və dini dəyərlərimiz" mövzusunda;

16 oktyabr – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Tasmalı kənd tam orta məktəbində zərərli vərdişlərlə mübarizə ilə bağlı;

**17 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Dəfinə" məktəb-liseyində "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Saatlı şəhər V.Əsgərov adına 4 nömrəli tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizədə din faktoru" mövzusunda; DQİDK ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında imzalanmış Tədbirlər Planı çərçivəsində 7 və 11 saylı cəzaçəkmə müəssisələrində; DQİDK və Sabunçu RİH-in birgə təşkilatçılığı ilə Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbəsində "Dini maarifləndirmə: perspektivlər" mövzusunda;

**21 oktyabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə rayonun Çarhan kəndində "Dini radikalizmlə mübarizə: necə və nə etməli?" mövzusunda;

**22 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Muxax kənd 1№-li tam orta məktəbində "Dini radikalizm və narkomaniyaya qarşı mübarizə metodları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Siyəzən şəhəri 2 saylı tam orta məktəbində "Uşaqların mənəvi inkişafı: nəyi necə etməli?" mövzusunda; DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Bakı şəhəri Qaradağ rayonunda "Dini radikalizmə qarşı mübarizə yolları" mövzusunda; DQİDK və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə rayonun Adnalı kəndində "Dini radikalizmlə mübarizə: necə və nə etməli?" mövzusunda;

**23 oktyabr** – DQİDK və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Şirvan şəhərində gənclər arasında dini radikalizmin profilaktikasına həsr olunmuş regional müşavirə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in birgə təşkilatçılığı ilə "Sağlam həyat, yüksək mənəviyyat naminə "Narkomaniyaya yox!" deyək" mövzusunda; DQİDK və Binəqədi RİH birgə təşkilatçılığı ilə Binəqədi rayonu 3 nömrəli tam orta məktəbdə "Dövlət və din münasibətləri" mövzusunda;

**24 oktyabr** – DQİDK və Xəzər rayonu Qala qəsəbəsi dini icmasının birgə təşkilatçılığı ilə "Dini dəyərlər və qarşıda duran perspektivlər" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Saatlı şəhər Səməd Vurğun adına şəhər 1 nömrəli tam orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqların mənəvi inkişafı: nəyi necə etməli?" mövzusunda;

**25 oktyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə gənclər arasında dini radikalizmin profilaktikasına həsr olunmuş regional müşavirə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara RİH-in Ərçivan qəsəbə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Vətənpərvərlik dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda;

**29 oktyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ rayonu Bum qəsəbəsi Təbriz Yaqubov adına tam orta məktəbində "Uşaqların mənəvi inkişafı: nəyi necə etməli" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhər 2№-li tam orta məktəbində "Dini radikalizm və ekstremizm gələcək üçün təhlükədir" mövzusunda baş tutub.

Tədbirlərdə ölkədə dini etiqad azadlığının yüksək səviyyədə təmin olunmasından, bütün dini konfessiyalara yaradılan şəraitdən, dövlətin bu sahəyə xüsusi diqqət və qayğısından danışılıb. Çıxışçılar dini radikalizm, zərərli vərdişlər və onların fəsadları haqqında tədbir iştirakçılarına məlumat veriblər. Vurğulanıb ki, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin elmə yiyələnməsi, milli-mənəvi dəyərlər ruhunda formalaşması olduqca əhəmiyyətlidir.

# DÜNYADA DİNLƏR RƏQƏMLƏRİN GÖZÜ İLƏ




Hazırda Yer kürəsində təqribən 7.7 milyard insan yaşayır və minlərlə din mövcuddur. Dünyanın istənilən yaşayış yerində müxləlif inanclara rast gələ bilərik. Təbii ki, bu, bütün insanların inanclı olması anlamına gəlmir. Qloballaşma prosesinin də təsiri ilə dünyanın dini mənzərəsi sürətlə dəyişir. Çünki insanların hansısa dinə mənsub olub-olmaması bir çox amillə bağlıdır. Təbii ki, buna regionda və dünyada baş verən siyasi, iqtisadi və mədəni proseslərin, bütövlükdə qloballaşmanın təsiri çox böyükdür.

Bu gün bir çox beynəlxalq araşdırma mərkəzi dünyadakı dinlər barəsində məlumatlar, o cümlədən dindarların sayında və dini ritualların tətbiqində artım, yaxud azalma proqnozları verir. Məlumatlarda, əsasən, ardıcıllarının sayı etibarilə üstünlük təşkil edən və ya daha çox tanınan dinlərin, eləcə də heç bir dinə etiqad etməyənlərin statistikası göstərilir.

Ümumiyyətlə, ölkələr və ya regionlar üzrə dindarlığın durumunu əks etdirən statistik məlumatların hazırlanmasında dörd meyardan istifadə olunur:

1) icma mənsubiyyəti;
2) dinin aktuallığı (aparılan sorğuların nəticələri Cənubi Amerikada və Orta Şərqdə dinin insanların həyatında önəmli hadisə olduğunu, Avropa, Çin, Uzaq Şərq və Avstraliyada isə bunun əskinin müşahidə edildiyini göstərir.);
3) Başqaları ilə birlikdə ibadətlərdə iştirak;
4) İbadətin müntəzəmliliyi.

Son iki meyarın, əsasən, İbrahimi dinlərin ardıcılları arasında aparılan sorğularda tətbiq olunduğunu söyləmək olar. Belə ki, Buddizm, Hinduizm və digər Şərq dinlərinin ardıcılları üçün dinin hansısa icmaya üzvlükdən daha çox mədəniyyət və ənənə məsələsi olması həmin meyarların aparılan sorğu və araşdırmalarda tətbiqinə imkan vermir.

Pyu Araşdırmalar Mərkəzinin verdiyi hesablamalara əsasən, hazırda dünyadakı dinlərin statistikasına 31.1%-ilə Xristianlıq başçılıq edir. Bu dinin ardıcıllarına dünyanın bir çox ölkəsində rast gəlinsə də, daha çox Avropa, Amerika, Afrikanın cənub hissəsində yayılmışdır. İkinci yeri isə 24.9%-lə İslam tutur. O, Afrikanın şimalından Orta Asiya və İndoneziyaya qədər olan bir sıra ölkələrdə ən populyar dindir. Üçüncü yeri 15.6%-lə dini mənsubiyyəti olmayan və ya ateistlər tutur. Bu kateqoriyaya aid edilənlər daha çox Çin, Yaponiya, ABŞ və Avropada yaşayır. Son illərin araşdırmalarına əsasən, bu kateqoriyanın artımında əvvəlki illərlə müqayisədə azalma müşahidə olunur. Nəzərinizə çatdırmaq istərdik ki, Çin dünyada ən çox dinsiz və ya ateistlərin yaşadığı ölkə hesab olunur. Statistik hesablamaların yer aldığı siyahıda 15.2%-lə dördüncü yeri Hinduizm tutur. Bu dinə ən çox Hindistanda, Nepalda, Banqladeşdə, Şri-Lankada rast gəlinir. Beşinci yerdə 6.6%-lə Buddizm dayanır. Buddizmin sıx yayıldığı ərazilər Çin, Cənub-Şərqi Asiya və Uzaq Şərqdir. 6-cı yerdə 5.6%-lə məhəlli dinləri və ənənələr, miflər əsasında formalaşmış dinlər/inanclar qərarlaşır. Bu qrupa mənsub olanların əksəriyyəti Asiya-Sakit Okean bölgəsində, bir qismi Böyük Səhradan cənubdakı Afrikada, Latın Amerikası və Karib dənizi bölgəsində yaşayır. Ümumiyyətlə, bu qrupa Afrikadakı ənənəvi dinləri, Çin xalq dinlərini, Yerli Amerika dinlərini və Avstraliya aborigen dinlərini də daxil etmək olar.

Dünyada təxminən 58 milyon digər dinlərin üzvü var ki, bu da dünya əhalisinin təqribən 0.8-1%-ni təşkil edir. "Digər dinlər" kateqoriyasına Bəhailik, Daosizm, Caynizm, Şintoizm, Siqhizm, Tenrikyo, Vika, Zərdüştlük və digərləri daxildir. "Digər dinlər" kateqoriyasına mənsub olan insanlara dünyanın hər yerində rast gəlmək olar. Lakin bu kateqoriyaya aid edilən insanlar Hindistan və Cənub Şərqi Asiyada eləcə də Yaponiyada daha çoxdur.

Dünyada təxminən 15 milyona yaxın yəhudi var ki, bu da dünya əhalisinin 0,2%-ni təşkil edir. Yəhudilərin sayı haqqında verilən məlumatlar özünü yəhudi kimi tanıyanların sayına əsaslanır. Ancaq yəhudi qohumluğu olan, yəni nənə və babası yəhudi olan və ya ana tərəfdən yəhudi olanların sayını nəzərə alsaq, yəhudilərin sayı 20.7 milyona çatar (Berman Jewish DataBank).

Bu gün yəhudilərin ən çoxu yalnız iki ölkədə, ABŞ-da və İsraildə yaşayır. İsrail yəhudilərin ən kompakt yaşadığı ölkədir. Kanada, Fransa, İngiltərə, Almaniya, Rusiya, Argentina, Azərbaycan və Yaxın Şərq ölkələri də yəhudilərin məskunlaşdıqları ölkələr sırasındadır.

**Tural Vəlizadə**

# Yeni media ilə gələn yeni problemlər ... Və ya "hörümçəyin toru"na düşməmək üçün nə etməliyik?

"We Are Social" analitik agentliyinin və "Hootsuite" servisinin araşdırmalarına əsasən, 2019-cu ildə internet auditoriyası 4,39 milyard nəfər təşkil edir, 3,48 milyard istifadəçi isə sosial şəbəkələrdə qeydiyyatdadır. Üstəlik, şəbəkə istifadəçilərinin sayı inanılmaz sürətlə artır. Araşdırma əsasında məlum olub ki, trafikin 60 faizindən az hissəsi real insanların payına düşür, qalan hissəsini isə saxta xəbər, müasir dillə desək, "feyk" yaradıcıları və botlar (ümumdünya hörümçək torunda avtomatik tapşırıqları yerinə yetirən proqram) təşkil edir. Zəruri məlumatın tez və rahat şəkildə tapılması, ünsiyyətə geniş imkanlar yaratması, səmərəli fikir mübadiləsinin aparılması baxımından internetin rolu əvəzolunmazdır. Ancaq onu da etiraf etməliyik ki, internetin inkişafı ilə zərərli informasiyanın faydalı olandan ayırd edilməsi prosesi də çətinləşib. Çünki bu gün dünyada ictimai rəyin formalaşmasında təkcə siyasətçilər, peşəkar jurnalistlər, publisistlər və s. sahə mütəxəssisləri iştirak etmir. Dünyada baş verən proseslər bu gün yeni medianın da dəstəyi ilə ən ucqar yerlərdə yaşayan insanların da dünyagörüşünə, həyat tərzinə, ümumilikdə isə mədəniyyət, incəsənət, siyasət, din və həyatının bütün sahələrinə aid düşüncələrinə, davranışlarına təsir göstərir.

Tarixi prosesə nəzər salsaq görərik ki, media ilə din arasındakı münasibət hər zaman cəlbedici olub. İstər ənənəvi, istərsə də yeni media olsun, din bütün KİV üçün məhsuldar və reytinq gətirən sahə hesab edilir. Xüsusilə internetin kəşfi ilə yeni media həyatımıza daxil olaraq, qısa müddətdə onun ayrılmaz parçasına çevrilib. Ənənəvi mediadan fərqli olaraq, paylaşma mühiti, interaktivlik, dinamiklik, ucuz, asan və hər yerdə əlçatan olması yeni medianı dinin cəmiyyətə təqdim edilməsində daha populyar və əlverişli vasitəyə çevirib. Bu baxımdan cəmiyyət tərəfindən yeni mediada dinlə bağlı mövzulara tez-tez toxunulur, hətta dində tabu sayılan bir çox məsələ müzakirə obyektinə çevrilir.

Eyni zamanda, geniş auditoriya qazanmaq üçün əlverişli məkan olan yeni mediada müxtəlif din və inanc sahibləri özlərini təqdim etmək imkanı qazanıblar. Beləliklə, yeni media, əslində, insanlar üçün "dinlər və inanclar yarmarkası"na çevrilib. Hər bir dini inancın davamçısı bu "bazar"da dini fəaliyyətini davam etdirmək imkanına sahibdir. Lakin bəzi dairələr, dini qruplar, o cümlədən şəxslər məqsədlərinə çatmaq üçün dini öz istəklərinə, düşüncələrinə uyğun yozurlar. Bu yolla ətrafına naşı, dini məlumatı olmayan və cəmiyyətdə özünə mövqe qazana bilməyən adamları toplamağa müvəffəq olurlar. Bu cür qurbanların əksəriyyətini isə "köhnə fikirlər"ə qarşı çıxan və özünü təsdiqləməyə çalışan gənclər təşkil edir. Bu baxımdan yeni mediada rast gəlinən dini yazılara ehtiyatla yanaşılmalı, məlumatın kimlər tərəfindən və hansı məqsədlə ötürüldüyü düzgün dəyərləndirilməlidir. Bu zaman bir neçə məqam nəzərə alınmalıdır.

Birincisi, hər bir informasiyanın arxasında anonimlikdən uzaq, konkret şəxs dayanmalıdır. Həmin şəxsin hansısa uydurulmuş ad altında gizlənmədiyinə əmin olmaq lazımdır. Üstəlik, müəllif bu sahənin mütəxəssisi və etibarlı şəxs olmalıdır. İnformasiyanın etibarlılıq dərəcəsini müəyyənləşdirmək üçün müəllif haqqında mümkün qədər çox məlumat toplamaq lazımdır. Müəllifin əsərləri varsa, onlarla tanış olmaq və ya din sahəsində necə mütəxəssis olduğunu öyrənməklə məlumatların etibarlılığını yoxlamaq mümkündür. Bu meyar onun elmi dərəcəsi və ya müəyyən sahədə müvafiq təcrübəsi, habelə tutduğu mövqe ilə müəyyən edilir. Əks təqdirdə, məlumatlar yararsız və hətta zərərli ola bilər.

İstifadə edilən mənbələr nə qədər çox olarsa, məlumatın etibarlılığı da o qədər yüksək olar. Etibarlılıq birbaşa məlumatın düzgünlüyü, tamlığı və obyektivliyi ilə əlaqəlidir. Bu, hansısa qərar qəbul etmək baxımından çox ciddi əhəmiyyət daşıyır. Məlumatın düzgün olduğuna nəzarət etmək son dərəcə vacibdir. Əgər məlumatı yoxlamaq mümkün deyilsə, yaxud fakta istinad edilmirsə, o zaman həmin məlumata güvənmək olmaz. Nəzərə almaq lazımdır ki, yüksək keyfiyyətli informasiya minimum dərəcədə emosional xarakterli, lakin maksimum dərəcədə konkret və obyektiv məlumatları ehtiva etməlidir.

Eyni zamanda, hər bir mənbə cəmiyyətə hər hansı faktları, informasiyaları ötürərkən həm mənəvi, həm də maddi maraqlarını düşünür. Belə ki, istənilən KİV, hətta tanınmış olsa belə, şübhəli məlumatları təqdim etməklə təkcə nüfuzunu deyil, həm də bu nüfuzun ona qazandırdığı maddi gəlirlərini asanlıqla itirə bilər. Ona görə də özünə hörmət edən informasiya mənbəyi yalan məlumat yaymaqla həm nüfuzunu, həm də qazancını təhlükə altına salmaq istəməz.

Beləliklə, qeyd olunanları ümumiləşdirsək, din haqqında bilgi əldə edərkən aşağıdakılara diqqət yetirilməlidir:

1) Məlumatın mənbəyi nə qədər etibarlıdır?
2) Məlumat digər mənbələr tərəfindən də təsdiqlənirmi?
3) Müəllif kimdir? İlahiyyat sahəsində mütəxəssisdir, yoxsa təsadüfi adam?
4) Məlumatı ictimailəşdirən sayt və ya səhifə müntəzəm olaraq yenilənirmi?

Bir daha vurğulamalıyıq ki, din şəxsi maraqlarını həyata keçirənlərin əlində əlverişli "silah"dır. Onlar dini doqmaları rahat şəkildə şərh edərək insanların fikirlərinə təsir göstərir və çox vaxt aztəhsilli, asanlıqla təsir altına düşən adamları hədəf seçirlər. Və bu fəaliyyət üçün ən əlverişli vasitə yeni mediadır.

Belə bir şəraitdə təhlükəsizlik baxımından medianın özünü tənzimləməsi zərurəti bu gün daha çox aktuallaşıb. Bunun yollarından biri də cəmiyyətdə zorakılıq və qeyri-sabitlik mühiti yaradan materialları şəxsi senzuradan keçirməmək, ümumiyyətlə, veto qoymaqdır. Çünki hər bir cəmiyyətin zorakılığa meyilli olmayan, dözümlülüyü təbliğ və təşviq edən sağlam mühitə ehtiyacı var.

**Sadiq Mirzəyev**

# "Daha peyğəmbərlər gəlməyəcəksə də, Tanrı göndərişləri ara vermir və verməyəcək"



## Şair, tərcüməçi, şərqşünas-alim Nəriman Qasımoğlunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi

**– Böyük şairimiz Mirzə Ələkbər Sabir deyirdi ki: "Hərə Qurana verir istədiyi mənanı, aç oxu, gör həzrəti Quran nə deyir". Əksəriyyət də bu düşüncədədir. Ancaq bu düşüncədə olanların özləri oxuyurlarmı? Və ya oxumaq istəyən nəyi oxusun: Quranın orijinalını, yoxsa tərcüməsini? Etiraf edək ki, orijinaldan oxumağı öyrənməklə də iş bitmir, gərək ərəb dilini mükəmməl biləsən. Tərcümələr isə bir-birindən fərqlənir...**

– M.Ə.Sabirin ironiyası dini həqiqətlərin təfsirlərini mövhumatçılığı yayan insanların, əsasən də fərqli təriqətlərə mənsub din xadimlərinin, mollaların inhisarından çıxarılmasını təlqin edir. Yəni özünüz oxuyun, özünüz dərk edin, bunu sizin yerinizə başqaları etməsin ki, kimlərinsə təfsirlərinin əsiri durumuna düşməyəsiniz. Əslində, maarifçi-demokrat şairimizin məqsədi insanları xeyli dərəcədə siyasiləşmiş olan təriqətçilik girdabından, qarşıdurmasından ayırıb Quran İslamına çəkmək olub. İndi daha yaxşı anlaşılan Quran məntiqi işığında baxdığımda isə Sabirin ironiyasına nisbətən fərqli yanaşmanı da ortaya qoymaya bilmirəm. Fikrimi belə ifadə edim: elə müqəddəs Kitabı açıb oxuyanlar üçün də "həzrəti Quran" eyni mənalar, hikmətlər açmır, əksinə, fərqli sözlər deyir. Hər oxuyanın dərk və təfəkkür səviyyəsini, əhvalı və psixoloji durumunu müəyyənləşdirən fərqliliklərdən doğan fərqli sözlər. Bu, mahiyyətcə, Quranın teoloji məziyyətlərinin universallığı ilə şərtlənən bir özəllikdir, Quranın – icazənizlə müqəddəs Kitabımızı müsahibəmizdə bundan sonra mənasına uyğun OXU adlandırım – OXU-nun daim canlı, aydın dillə danışan bir məzmunda oxuyanları ilə canlı, fəal əlaqədə olmasını səbəbləyən bir özəllik. OXU-nun unikallığı da zatən bundadır ki, deyir: "fəqrau mə: təyəssəra minə-l-qur'ə:n", yəni "oxuyun Oxu-dan nə alınırsa" (73:20). Bunu ilahi mərhəmətdən, ilahi hikmətlərdən hamıya pay düşür kimi anlamaq lazım gəlir. Fərqli təfəkkür sahiblərinin bəzi məqamlarda Oxudan hasil etdiyi fərqli qənaətlərin təyinatının bir müsbət tərəfi də Sabirin nəzərdə tutduğu təriqətçilik mərəzinə yoluxmanı sadəcə aradan qaldırmaqla bağlıdır.

> Ərəblərin əksəriyyəti Oxunu hadislər bucağından anlamağa çalışır.

Gəlirəm o sualınıza ki, oxumaq istəyən nəyi oxusun: Oxunun orijinalını, yoxsa tərcüməsini? Əlbəttə, bəhrələnmək istəyənlər ilk növbədə tərcümələrə müraciət etməlidirlər. Və sizə bir məqamı xüsusi vurğulayım ki, Oxunu orijinalda, öz dilində oxuyan ərəblərin əksəriyyətinin dərki ilə tərcümələrdə oxuyan əksər azərbaycanlıların dərki arasında adətən elə bir fərq olmur. Niyə? Çünki ərəblərin əksəriyyəti Oxunu hadislər bucağından anlamağa çalışır. Qeyri-ərəblərin də doğma dillərində oxuduqlarının mütləq əksəriyyəti Oxu ayələrinin tərcüməsini hadislər müstəvisində təqdim edir. Fərqli tərcümələrdə isə müəyyən fərqlər bu və ya digər məzhəbin təsiri ilə gəlişən bəzi fərqli qənaətlərdən doğur. Mütərəqqi müsəlman alimlərinin Oxu təfsirləri, tərcümələri üçün təklif etdiyi yeni bir metod da var. Söhbət Oxunun hədislərlə deyil, Oxunun Oxu mətninin öz məntiqi ilə şərtlənən izahlarını, tərcümələrini ərsəyə gətirən üsuldan gedir. Yəni "peyğəmbər sünnəsi" deyilən mətləbi bu tərcümələrdən uzaq tutursan, – əslində Oxu məntiqinə görə belə də etməlisən, çünki orijinalda sünnəyə, yəni qayda-qanunlara aid işlənən termin "peyğəmbər sünnəsi" deyil, "Tanrı sünnəsi"dir, – daha çox ayrı-ayrı sözlərin qrammatik məntiqini, məntiq kontekstinə uyğun məna çalarlarını əsas götürürsən. Kimlər üçün qəribə səslənsə də, deyim, məhz bu zaman Oxunun mətn möcüzələri öz hikmətlərini sənə açır, səninlə sanki canlı bir ünsiyyət qurur.

Yeri gəlmişkən, ötən il çapdan çıxmış tərcümə əsərim məhz bu metoda əsaslanır. Yeni tərcümədə əsas üstünlük onunla şərtlənir ki, oxucu müəllifin subyektiv mövqeyi ilə üz-üzə qalmır, ilahi informasiyadan aldığı qənaətlərini bir çox hallarda öz dərrakəsi çərçivəsində özü müəyyənləşdirmək imkanı qazanır, təfəkkürünü inkişaf etdirir. Və bu yönümdə müəllifin əməyi ona sadəcə çılpaq və oxunaqlı bir informasiya kimi kara gəlir, Tanrı-insan münasibətlərində, necə deyərlər, vasitəçisizliyi – dinimizin bu başlıca prinsipini təmin edir.

**– Müsahibələrinizin birində qeyd etmisiniz ki, Peyğəmbərlərin gəlişi tarixi təkamül hadisəsi deyil, bəşəriyyətin taleyinə Tanrının iradəvi müdaxiləsidir. Necə düşünürsünüz, bu gün - dünyanın 40-dan çox bölgəsində müharibələrin, savaşların, qovğaların yaşandığı dövrdə Tanrının növbəti iradəvi müdaxiləsinə ehtiyac yoxdurmu? Yaxud, bəlkə, o müdaxilə var, sadəcə biz görmürük?**

– Peyğəmbərlərin gəlişi ilə bağlı vaxtilə vurğuladığım Tanrının iradəvi müdaxiləsini kosmik-ilahi informasiyanın yenilənməsi kontekstinə aid etmişəm. Mütərəqqi ilahiyyatçıların dilində belə bir ifadə səslənir: "peyğəmbərlik bitmiş, risalə davam edir". Yəni daha peyğəmbərlər gəlməyəcəksə də, Tanrı göndərişləri ara vermir və verməyəcək. Bu, elə Tanrının iradəvi müdaxiləsinin əlamətidir, O-nun ismarışları ən fərqli elmi, yaradıcılıq mahiyyətli fəaliyyətlərin məhsulları kimi insanlara çatdırılır. İnsanlar da öz iradəvi istəklərinin ixtiyarındadır. Bir qismi cəmiyyətlərini qurur, inkişaf etdirir, başqalarına nümunə verir, bəşəriyyəti tərəqqiyə səsləyir, digər qismi də əks fəaliyyətdə. Dünyanın siyasi xəritəsinə nəzər salın, inkişaf etmiş dövlətlərin coğrafiyasında müəyyən ziddiyyətlər olsa da, müharibələr baş vermir. Baxın müharibədən əziyyət çəkən ölkələrin və müharibə ilə hədələyən ölkələrin yerləşdiyi bölgələrə. Vətənimizin erməni işğalından çəkdiyi əziyyət coğrafiya sarıdandır, multikultural, tolerantlıq, yeniliyə meylli xalqımız Avropada ən şovinist mədəniyyət ocaqlarına aid siyahının başında gələn ölkələrlə (Amerikanın Pew Center araşdırma mərkəzinin hesabatına görə bu siyahıda 2-ci yer Gürcüstan, üçüncü yer Ermənistan, dördüncü yer Rusiyaya aiddir) bir coğrafiyanı paylaşmaq məcburiyyətindədir. Oktyabr ayının əvvəllərində Koreyada keçirilən Ekoloji Sivilizasiya başlıqlı beynəlxalq tədbirdə iştirak etdim. Tədbirdə həm məruzəçi, həm də sessiyalardan birinin aparıcısı idim. Rəhbərlik etdiyim sessiyada məruzə edən macar həmkarım faktlara əsaslanan iqtisadi-siyasi təhlilləri ilə Avrasiya kontinentinin gələcəyindən çox nikbin danışdı və bu kontekstdə də torpaqlarımızın azad ediləcəyinə ümidlərimi bir az da artırdı...

**– Sizin baş örtüyü, İbrahim peyğəmbərin oğlu İsmayılı qurban əhd etməsi, doğma dildə ibadət kimi mövzularda doqmalara zidd fikirlər səsləndirirsiniz ki, bu da cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Ümumi qəbul edilmiş fikirlərə qarşı olan düşüncələrinizi də dilə gətirməkdən çəkinmirsiniz. Hətta bildiyimə görə, sizi bir katolik din xadimi İslamın Martin Lüteri adlandırıb. Bu epitet sizi narahat etmir?**

- Təvazölü olanda bəzən faktların da üzərindən sükutla keçirsən (gülümsəyir). 2012-2013-cü illərdə Harvard Universitetində çalışdığım zaman Amerika Alimlərin Xilası Fondu haqqımda reklam xarakterli və "2012-ci ilin tanınmış alimi" başlıqlı bir təqdimat yaymışdı. İnternetdə indi də qalır həmin təqdimat. Orada həmkarlarımdan birinə istinadən məni "keçmiş Sovet İttifaqında Quran alimlərinin ən yaxşılarından biri, bəlkə də, ən yaxşısı", "Rusiyanın cənubunda və Mərkəzi Asiyada fundamentalizmin yayılmasına sipər olan azsaylı şəxslərdən biri" kimi səciyyələndiriblər. Və sizin qeyd etdiyiniz epiteti isə elə təxminən o zaman Harvard Universitetinin nəzdində fəaliyyət göstərən Dünya Dinlərinin Araşdırma Mərkəzinin direktoru Frederik Kluni "Quran qeyri-ərəb dillərində: teoloji və linqvistik çağırışlar" adlanan məruzəmin müzakirəsində dilə gətirmişdi. Martin Lüter bir sıra ciddi fundamental məsələlərlə yanaşı, kilsənin kanonikləşdirdiyi latın dilində ibadətin yerinə ayinlərin milli dillərdə icrasının əsasını qoyan ideyalarla çıxış edirdi. Təsəvvür edin, xristian reformasiya hərəkatının öncülü olmuş bir şəxsin adı ilə fəaliyyətimə verilən belə qiymətdən necə narahatlıq keçirmək olar? Əlbəttə, çox yüksək dəyərləndirmədir. Orada və ABŞ-ın digər universitetlərində, müxtəlif auditoriyalarında dinimizin mahiyyətinə dair fərqli mövzularda xeyli çıxışlarım olub. Bir dəfə Amerikalı həmkarlarımdan biri vətənə qayıtmaq ərəfəsində mənə dedi "Azərbaycan kiçik ölkədir, oraya necə sığırsan?". (gülümsəyir) Soruşanda "necə bəyəm?" Dedi: "bilirsən, sənin kimisinə Amerikada daha çox ehtiyac var, bizdəki müsəlman icmalarının əksəriyyəti açığa vurmasalar da, fərqindəyik ki, fundamentalist zehniyyətlilərdən ibarətdir, sənə çox ehtiyacımız var, onları da ağıllandırasan". Dedim "bizim də taleyimizə islahatçılığı dünyaya Azərbaycandan yaymaq yazılıb".

> Bizim də taleyimizə islahatçılığı dünyaya Azərbaycandan yaymaq yazılıb.

Əlbəttə, bilirəm, doqmalara zidd fikirlərin səsləndirilməsi heç də birmənalı qarşılanmır. Təbiidir. Ruhdan düşmək üçün isə əsas yoxdur, ziyalılarımız əksərən ehkamçı düşüncədə deyillər. Ümumən, Azərbaycanın mədəniyyət, ədəbiyyat tarixinə nəzər salanda da aydın görürsən ki, böyük söz sahiblərimiz hər zaman mövhumatçılıq ənənələrinin, ehkamlarının fövqündə dayanan əsərlər yazıblar. İslamın qızıl dövrü adlanan bir tarix var, müsəlman coğrafiyasında mədəni, iqtisadi, siyasi, elmi sahələrdə VIII əsrdən XIV əsrədək davam edən çiçəklənmənin, yüksəlişin tarixidir. İslahatçılıq ideyalarının, fəlsəfi fikrin bütün dünyaya örnək səciyyədə qaynaşması dövrü olub. Ardınca bilirsiniz nə gəldi, bütün bunların yerini dini düşüncədə bilirsiniz nə tutdu? İndi çoxlarının fəxarətlə haqqında yazdığı, nitqlər söylədiyi təsəvvüf, sufilik... Yəni elmi düşüncəyə birdəfəlik nöqtə. Sonrası da məlum.

> Azərbaycanın mədəniyyət, ədəbiyyat tarixinə nəzər salanda da aydın görürsən ki, böyük söz sahiblərimiz hər zaman mövhumatçılıq ənənələrinin, ehkamlarının fövqündə dayanan əsərlər yazıblar.

Madam söhbət ehkamlara zidd mövqedən gedir, başqa bir-iki teoloji tapıntımı da buradaca qeyd etmək, elə bilirəm, yerinə düşərdi. Bir az əvvəl Koreyadakı çıxışımdan söz saldım. Məruzəm "Bibliyada və Quranda su ruhani kosmogoniyanın komponenti kimi" adlanırdı. Mövcud aləmin heçdən yaranmadığına, hələ mahiyyətini dərk edə bilmədiyimiz və müqəddəs yazılarda "su" sözü ilə ifadə olunan materialdan yarandığına dair qənaətlərimi əsaslandırdım. Maraqlı müzakirə getdi. Məlum ehkamlar üzərində qərarlaşan rəsmi Xristianlıq üçün də bu teoloji tapıntı idi, çünki Bibliyaya da istinad edən əsaslandırmanı onların diqqətinə çatdırmışdım. İştirakçılara deyəndə ki, bunu təkcə bizim tapındığımız yazılar demir, hinduizmin Riq-Vedasında da, yəni min illər öncə vəhy edilmiş yazılarda da bu qənaət təsdiqini tapır, bu teoloji tapıntıya maraq göstərdilər və bunu ekoloji sivilizasiyanın yaranması işində xeyli faydalı ola biləcək töhfə kimi dəyərləndirdilər.

davamı səh. 9

# "Daha peyğəmbərlər gəlməyəcəksə də, Tanrı göndərişləri ara vermir və verməyəcək"

Əksər müsəlmanlar ifadəni "onları döyün" kimi anlayırlar. Əlbəttə, bunun Oxu məntiqi ilə tərs düşdüyü aşkardır. Çünki söhbət konkret məqamda cəza tədbirindən gedirsə, nəzərə alınmalıdır ki, hər hansı yanlış əməlin qarşılığı onun misli ilə, yəni adekvat qaydada verilməsinə dair Oxu ayələrində aşkar tələblər var.

əvvəli səh. 8

Yeri gəlmişkən, etiraz etməsəniz, bu teoloji yenilikdən ilhamlanaraq yazdığım bir qəzəli də oxucularınızın diqqətinə çatdırardım:

*Çək sığal yaddaşıma, Rəbbim, kərəm qıl, faş elə,*
*Aç oxusunlar məni aləmlərə həmyaş elə.*

*Öz Yazındır yazmısan yaddaşıma, min sirrini*
*Kim açar məndən alayı bir ağıllı baş ilə.*

*Milyon il əvvəldəyəm, ərşin sular üstündədir,*
*Dalmışam bu şəklə, Rəbbim, Sən təkin Nəqqaş ilə.*

*Çoxlarının zənnidir yoxdan yaratdın hər şeyi,*
*Qupquru ehkamları sal ol sulara yaş elə.*

*Min-min ayət bir an içrə çeşmimi sarmış yenə,*
*Heyrətimdən çaşqınam, gərdişini yavaş elə.*

*Adəməm, səhv etmənəm ta, gəl dəyişdir hökmünü,*
*Mən qalım qoy, iblisi ol səhnədən çıxdaş elə.*

*Qalx ayağa, Qasımoğlu, Rəbbinin hökmündəsən,*
*Bax O-na gör öz üzünü təzə bir yaddaş ilə.*

**– Quranı nəzm formasında tərcümə etmək təşəbbüsü yalnız sizə məxsusdur, yoxsa sizə qədər dünyada bu təcrübə var idi və İslam dünyasında buna münasibət necədir? Ümumiyyətlə, niyə nəzm janrında deyil, nəsr janrında tərcümələr daha çox qəbul edilir?**

– Xeyr, ümumiyyətlə, mənə məxsus deyil. Mənim birinci tərcüməmi nəzərdə tutursunuzsa, bu nəzmlə tərcümə deyil, sadəcə bədii tərcümə variantıdır. Nəzmlə, yəni ayələri qafiyələndirərək tərcümə etmək, əlbəttə, mümkündür, amma bu, tərcüməçini mahiyyətdən uzaqlaşdırar. İlk belə tərcümə təcrübələri ötən əsrlərdə Qərb dillərində olub. Son vaxtlar isə Şərq dillərinə də belə tərcümələrə iddialar olur. Əslində, olduqca mənasız işdir, çünki Oxu başdan-başa nəzm ölçülərində deyil. Mətnin bir dil möcüzəsi kimi özəlliyi - bəlağət və ecaz baxımından sözlərin düzümü, eyni sözün, ifadənin yerinə görə müxtəlif mənalar daşıması, səslərin alliterasiyasının aşıladığı ovqatlar, oxunuş ahəngindən doğan eyhamlar, mənaca bir-birinin oxşarı olan ayələrin başqa-başqa surələrdə təkrarlanması ilə bağlı psixoloji təsirlər, bəzi yerlərdə tələbləri gücləndirən qafiyələr, dinləyənlərə düşünüb-daşınmaq imkanı yaratmaqdan ötrü yeri gəldikcə qulağı rahat buraxan qafiyəsiz məqamlar mətnin ilk qavrayışda müşahidəyə gələn dil məziyyətlərindəndir və bunlar ümumilikdə ayələrin nəzmlə, yoxsa nəsrlə yazıldığını vurğulamaq məsələsini etibarsız edir. Əksəriyyət Oxu mətninin orijinalının, yəni ilahi vəhylərdən ibarət ayələrin ədəbi-bədii şəklinin də fövqəladə olduğu qənaətindədir. Mən də bu qənaəti paylaşıram.

Nəzmlə, yəni ayələri qafiyələndirərək tərcümə etmək, əlbəttə, mümkündür, amma bu, tərcüməçini mahiyyətdən uzaqlaşdırar.

Yeni tərcümə əsərimə gəlincə, daha bir yenilik bədii tərcümə üslubu ilə sözbəsöz tərcümə variantının mümkün qədər sintezini ərsəyə gətirməkdən ibarət olmuşdur. Ona görə "mümkün qədər" ki, indiki məqamda bunu bütün mətn boyu tam və ideal bir şəkildə həyata keçirmək hələlik imkan xaricindədir. Bu mənada, əlbəttə, ehtiyac var ki, mətn üzərində cilalanma işi daimi bir yaradıcılıq prosesinə çevrilsin.

**– Sosial şəbəkələrdə aktiv insanlardansınız. Yəqin ki, zaman-zaman müxtəlif məsələlər gündəmə gəldikcə bir qisim insanın Qurandan ayələri sitat gətirməklə İslamı, onun Kitabını hədəf seçməsinin şahidi olursunuz. Məsələn, bu günlərdə "Nisa" surəsinin 34-cü ayəsi "trenddir". Doğrudur, siz bu ayəni fərqli formada tərcümə etmisiniz. Ancaq cəmiyyətin böyük hissəsi digər tərcümə variantlarını qəbul edir. Necə düşünürsünüz, bütün bu məqamları nəzərə alaraq Quranın yenidən tərcümə edilməsinə ehtiyac varmı?**

– Qeyd etdiyiniz ayənin ənənəvi açıqlaması, əlbəttə, qadına qarşı zorakılığa bəraət qazandırır. Cəmiyyətin böyük bir hissəsi, əgər siz dediyiniz kimi, digər tərcümə variantlarını qəbul edirsə və bu variantların içində ənənəvi olanı daha yayğındırsa, deməli, buna təəssüflənə bilərik, çünki alt şüurda qadına əl qaldırmaq məsələsi dini baxımdan bir qanuniləşdirilmiş və bəraətli anlama gəlir. Məsələni yumşaltmağa çalışan bəzi mütərəqqi türk alimləri isə ayənin açıqlamasında getməyən, ifadə olunmayan bir mənaya süni şəkildə üstünlük qazandırmağa çalışırlar. Mənim təqdim etdiyim isə, həqiqətən, teoloji kəşfdir, məlum sözün lüğətlərdə getmiş məna çalarlarından birini əsas götürür.

Bilməyənlər üçün öncə müvafiq ayənin məzmununu çatdırım. Dikbaşlıq sərgiləyən qadınlara aid öncə "öyüd verin" deyilir. Yola gəlməsələr, deyilir, "onları yataqda tək buraxın". Duruma uyğun bu ikinci tövsiyənin ardınca üçüncüsü də gəlir: mətnin orijinalında "vadribuhunnə". Əksər müsəlmanlar ifadəni "onları döyün" kimi anlayırlar. Əlbəttə, bunun Oxu məntiqi ilə tərs düşdüyü aşkardır. Çünki söhbət konkret məqamda cəza tədbirindən gedirsə, nəzərə alınmalıdır ki, hər hansı yanlış əməlin qarşılığı onun misli ilə, yəni adekvat qaydada verilməsinə dair Oxu ayələrində aşkar tələblər var. Bu tələblərlə "onları döyün" arasında ziddiyyət vaxtilə məni xeyli məşğul etmişdi.

Təfsir ədəbiyyatına baş vurdum öyrənim ki, ilahi məntiqə tərs düşən bu ənənəvi yozumdan fərqli hansısa başqa bir məqamı, görəsən, vurğulayan olubmu. Mütərəqqi, islahatçı sayılan müsəlman alimlərinin qeydləri də məni qane etmədi. Əksəriyyəti "vadribuhunnə" ifadəsinə aid "da-ra-bə" feilinin kökündə otuza yaxın məna olduğunu yazır, bunlardan ən önəmlilərindən dördünü – "vurmaq, döymək, çıxmaq, getmək" mənalarını diqqətə almağı və ifadəni bu cür açıqlamalarda qəbul etməyi məsləhət görürlər: "onları evdən çıxarın"; "onları olduqları yerin dışına getmək zorunda buraxın"; "onları döyün". Bunlardan hər birinin vəziyyətə, şəxsi keyfiyyətlərə görə uyğulanmasını keçərli bilərək birinci ilə ikinci insan psixologiyasına və hüquq məntiqinə daha uyğun sayanlar da var.

Ancaq məsələ burasında idi ki, "da-ra-bə" felinə həmin ilahiyyatçıların əlavə etdiyi mənaları gətirən müvafiq ön qoşmalarıdır və bu ön qoşmalardan heç biri Oxu orijinalında "vadribuhunnə" ilə birgə işlənmir və ənənəvi şəriəti islah etmək məqsədilə istinad edilən mənalar məhz bu üzdən elə təkcə ərəbcənin qrammatikası baxımından mənə, sadəcə, etibarsız görünmüşdü.

Ön qoşmasız halda işlənən "da-ra-bə" feilinin diqqətdən qaçmış, izahlı lüğətlərdə yer almamış, daha çox ərəblərin məişətində (məlum feil də zatən elə ailə-məişət kontekstindədir!), danışıq dilində işlənən və görkəmli rus ərəbşünası V.Borisovun tərtib etdiyi "Arabsko-russkiy slovar"a daxil edilən bir mənası diqqətimi çəkdi. Bu, erkəyin dişiylə cinsi əlaqəyə girməsini ifadə edir. Feilin digər məlum mənaları ilə yanaşı, həmin lüğətdə gedən bu mənası ənənəvi oxunuşda, yəni feilin birinci babının "va" bağlayıcısı ilə birgə işlənən əmr şəklində olan variantına da tam uyğun gəlirdi.

İlahiyyatçıların həmin ayənin izahı ilə bağlı məntiqi dalana dirənmələrinin başlıca səbəbi indinin özündə də, bir daha təkrar bildirim, həmin sözə aid rast gəldiyim mənanın ərəb dilinin ən məşhur izahlı lüğətlərində yer almaması ilə bağlıdır. Yəni sözün lüğəvi mənasına istinad etmək müsəlman alimləri üçün ilk baxışdan mümkün görünmür. Niyə ilk baxışdan? Az sonra buna da aydınlıq gətirəcəyəm. Ona görə də bəzən yanlış bir tərzdə kontekstdən kənar mənaya üstünlük verməli olurlar. Mənim vaxtilə istinad etdiyim isə məşhur bir ərəb-rus lüğəti idi ki, sözügedən feilin yeni mənasının əsaslandırılması üçün müraciət etdiyim qaynaq rolunu oynamışdı. Maraqlıdır ki, izahına cəhd etdiyim məna ənənəvi olmayan oxunuşda da öz əksini tapa bilir. Bu qeyri-ənənəvi oxunuş isə İslam ilahiyyatında əksəriyyətcə məqbul sayılmır.

Yeri gəlmişkən, buna da toxunum ki, aydınlıq yaransın. Məsələ burasındadır ki, "Quran" ayələrinin toplanaraq kitab halında tərtibləndiyi dövrdə ilkin nüsxələrin mətnlərində nə bəzi samitləri bir-birindən fərqləndirən, nə də saitləri bildirən diaktrik işarələr varmış. Hazırda da ərəbcə həm çap materialları, həm əlyazmalarda "hərəkələr" dediyimiz sait işarələri bir qayda olaraq qoyulmur. Sözləri bilən, qrammatikadan agah olanlar üçün bu, problem yaratmır. Bəzi samitlərin isə nöqtələri qoyulmasa olmaz, yazılanları fərqləndirə bilməzsən. "Quran"ın ilk nüsxələrində bu nöqtələr də yoxmuş və o zaman bunlara kəskin ehtiyac olmayıbmış, çünki ilk müsəlmanlar ayələri əzbər bilirmişlər. Zaman keçdikcə fərqli oxunuşlar üçün risklər artırmış ki, bu da mətnə sonradan diaktrik işarələrin əlavə edilməsini şərtləndirmişdir.

Qeyd etdiyim "da-ra-bə" feili ilə bağlı ərəbcəni bilənlərə məlumdur ki, həmin feilin əmr şəkli "idrib"-dir, "va" bağlayıcı ilə işlənəndə olur "v-adrib". Feilin dördüncü babı olan "ad-ra-bə"nin əmr şəkli isə "adrib"-dir, "va" bağlayıcı ilə işlənəndə olur "va-adrib". Belə qəbul edilib ki, birincinin əmr şəklində zəif boğaz samiti kimi qəbul edilmiş "həmzə" birləşdiricilik funksiyasını yerinə yetirərək oxunmur və oxunmadığına görə aid olduğu əlif dayağının üstündə yazılmır, dördüncünün əmr şəklində isə ayrıca tələffüz edilir və uyğun əlif dayağının üstündə yazılır. Hələ işarələrin qoyulmadığı "Quran" nüsxələrində həmin feili dördüncü babda da oxumaq mümkün idi. Ən maraqlısı odur ki, feilin dördüncü babında olan və izahlı lüğətlərdə yer alan (!) mənalarından biri elə birbaşa mənim qeyd etdiyimdir. Yəni azacıq fərqli oxunuş tərzi feili dediyim anlamda səsləndirir və gəldiyim qənaətə əlavə dəstək qazandırır. Ancaq yenə də deyim, öncə üstünlük verdiyim heç bu fərqli oxunuş da deyildi, istinadım ənənəvi oxunuşdakı mənalardan biri idi ki, izahlı lüğətlərdə yox idi. Düşünürəm, həmin mənanı gələcəkdə izahlı lüğətlərə də salarlar.

Multikultural, tolerantlıq, yeniliyə meylli xalqımız Avropada ən şovinist mədəniyyət ocaqlarına aid siyahının başında gələn ölkələrlə bir coğrafiyanı paylaşmaq məcburiyyətindədir.

Bəli, təbii ki, yeni tərcüməyə ehtiyacı nəzərə alaraq əvvəlki tərcüməmi kənara qoyub yenisini yazdım və bir az əvvəl buna yetərincə toxunmuşam.

**– Sizcə, son illər Azərbaycanda dini radikalizmlə mübarizə istiqamətində həyata keçirilən maarifçilik işi radikal ideyaların yayılmasının qarşısının alınmasında nə qədər əhəmiyyətli rol oynayır?**

– Maarifçilik tədbirləri hər zaman aktual və faydalıdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə bu istiqamətdə aparılan tədbirləri alqışlamaq lazımdır. Bunların əhəmiyyətini heç cür dandmaq olmaz. Bu da var ki, maarifçilik tədbirləri bir dövlət strukturunun işi ilə məhdudlaşmamalıdır və yaxşı olardı cəmiyyətin daha geniş spektri belə tədbirlərə öz töhfəsini versin. Umacaq yerimiz Azərbaycan yazıçıları, mədəniyyət xadimləri, jurnalistlərdir, onların da bu sahədə görməli olduqları işlər var. Ən azından ötən əsrin əvvəllərində mövhumata, din adına qələmə verilən gerilik adətlərinə qarşı fəallıq göstərmiş maarifçi-demokrat ədiblərimizə, xadimlərimizə layiqli sələflər olmaq istəyirlərsə.

**Müsahibəni apardı: Saleh Arslan**

# «SƏRT GÜC»ÜN YUMŞALMASI: FƏRQLİ METOD, EYNİ MƏQSƏD

Son 30 ildə dünyada bir sıra dəyərlər, o cümlədən mənəvi dəyərlər üzərindən manupilyasiya edilməsi halları nəzərəçarpacaq dərəcədə çoxalıb. Müxtəlif dövlətlər, güc mərkəzləri, dairələr öz maraqlarını digər ölkələrdə təmin etmək üçün fərqli üsullara əl atırlar. Geniş yayılan bu üsullardan biri də maddi nemətlərin "sərt" yollarla deyil, obrazlı desək, "könüllərin fəth olunması" ilə ələ keçirilməsidir.

*Bu, necə baş verir?*

Dünya yaranandan mübarizə meydanını xatırladır, müharibələr bəşəriyyətə böyük bəlalar gətirir. Buna görə də insanlar həmişə daha təhlükəsiz bir dünyanın formulunu tapmağa cəhd edirlər. Xüsusilə I Dünya müharibəsindən sonra "davamlı sülhü necə əldə etmək olar?" sualı ətrafında geniş müzakirələr başladı. Həmin dövrdə bu istiqamətdə əsas iki məktəb – idealizm və realizm məktəbləri önə çıxmışdı.

Müharibəni qeyri-təbii və irrasional hadisə hesab edən idealizm məktəbinin nümayəndələri müharibədən qaçmaq üçün əməkdaşlıq, iqtisadi işbirliyi, qarşılıqlı ticarət əlaqələrinin gücləndirilməsi, beynəlxalq təşkilatların yaradılması kimi bir sıra təkliflər irəli sürürdülər.

Realizm məktəbinin tərəfdarları isə təhlükəsizlik və hakimiyyət məfhumlarını önəmini vurğulayırdılar. Onlar fərdin belə bir inamına əsaslanırdılar ki, həyat əbədi mübarizədir və başqaları onu məhv etməyə çalışır. Milli marağı mərkəzə yerləşdirən bu ideologiyaya görə, hər bir millətin maraqları onun təsirlərinin – iqtisadi, siyasi və mədəni maraqlarının yayılması, ərazisinin genişləndirilməsidir. Dövlətin təhlükəsizliyi onun güclənməsi ilə düz mütənasibdir. Bu ideologiyaya görə, dövlətlər güclənir və nəticədə qüvvələr balansı yaranır. Böyük qüvvəyə malik olan tərəflərin bir-birinə hücum etməsi ehtimalı azalır. Tarixi təcrübə həm idealizmin, həm də də realizmin haqlı tərəflərinin olduğunu sübut etdiyindən, bu konsepsiyalar bu və ya digər adlar altında daha da təkmilləşdirildi. Lakin milli marağı qorumaq üçün güc amilinin vacibliyi bir daha təsdiq olundu.

Ənənəvi yanaşmalarda dövlətin gücü dedikdə daha çox maddi resurslar başa düşülür, əsasən, ölkənin hərbi qüdrəti göz önünə gəlir, ölkənin coğrafi mövqeyi, iqtisadiyyatı, təbii sərvətləri, əhalisinin sayı və s. nəzərdə tutulur. Belə güc "Sərt güc" kimi xarakterizə olunur. Amma sadalanan resurslar hələ real gücün olması mənasını vermir. Potensial güc o vaxt real güc kimi çıxış edir ki, o, başqalarının davranışlarını öz mənafeyinə uyğun yönləndirsin, hər hansı bir işi görməyə məcbur etsin və yaxud bundan çəkindirsin. Gücün bu formasında hərbi təhdid və ya müdaxilə, iqtisadi sanksiyalar, siyasi təzyiqlər vasitə kimi çıxış edir. Bu metodlar ənənəvi olaraq təsirli hesab olunsa da, müəyyən kütləvi qırğın silahlarına malik ölkələrin mövcudluğu və çoxqütblü dünya nizamının aktuallaşması şəraitində gücün başqa bir forması – "Yumşaq güc" məfhumu meydana çıxdı.

"Yumşaq güc" anlayışından ilk dəfə siyasi elmlər üzrə tanınmış amerikalı alim Cozef Nay (Joseph Nye) istifadə etmiş, bu məfhumla sərt gücdən istifadə etmə-



dən əməkdaşlıq və inandırma metodu ilə başqasının davranışlarını öz istədiyi kimi yönləndirmək üsulunu nəzərdə tutmuşdur. "Yumşaq güc"ün əsasında mədəni, siyasi, iqtisadi dəyərlərdən istifadə edərək gündəm yaratmaq, özünə rəğbət formalaşdırmaq durur. Lakin burada təzyiq, hədə-qorxu, məcbuetmə kimi sərt gücə məxsus metodlar istisna olunur. Məsələn, A ölkəsi B ölkəsinin vətəndaşları arasında öz mədəni dəyərlərini, siyasi strukturunu ideallaşdıraraq cəzbedici şəkildə təbliğ edir. Bu məqsədlə B ölkəsində mədəni tədbirlər, elmi-praktiki konfranslar, müsabiqələr və s. təşkil olunur. Dəyər kimi təqdim olunan məfhumlar isə ölkəyə görə dəyişə bilər. Teokratik siyasi sistemə malik olan bir ölkə dini baxışlar üzərində fokuslaşdığı halda, sekulyar dövlətlər daha çok demokratiya, insan hüquq və azadlıqları kimi məsələləri önə çıxarır. Dəyər qismində həmçinin məqsədli şəkildə müqəddəsləşdirilmiş xarizmatik şəxsiyyətlər, dini ziyarətgahlar, tarixi abidələr çıxış edə bilər. Eyni zamanda bəzi məfhumlar həm "sərt", həm də "yumşaq güc"ün qaynağı kimi çıxış edə bilər. Məsələn, bir ölkənin uğurlu iqtisadi sistemi onu cəzbedici göstərməklə "yumşaq güc"ün, başqalarına iqtisadi sanksiya tətbiq etmə potensialı ilə "sərt güc"ün qaynağı ola bilər. "Yumşaq güc"ün təsirli olmasının vacib şərtlərindən biri onun legitimləşdirilə bilinməsidir.

"Yumşaq güc"ün tətbiq olunan ölkədə əhali arasında cəzbedicilik, gündəm, rəğbət yaradıb-yarada bilmədiyinin ölçülməsi üçün də müəyyən metodlardan istifadə olunur. Məsələn, beynəlxalq idman yarışlarında azarkeşlik, mahnı müsabiqələrində səsvermə, hər hansı münaqişə zamanı ictimai rəyin ölçülməsinə şərait yaradan media və sosial şəbəkələrdə tərəflərdən birinin dəstəklənməsini ifadə edən paylaşım və ya rəylər buna misal ola bilər. Amma bu göstəricilərin başqa, nəticənin faktorlardan qaynaqlana biləcəyi ehtimalı da nəzərə alınmalıdır və təkcə "yumşaq güc"ün təsiri ilə yarandığını iddia etmək yanlış olardı.

Müasir dövrdə qloballaşmanın əks reaksiyası kimi milli və dini kimliklərin yenidən canlanması barədə tez-tez danışılır. Belə bir şəraitdə "yumşaq güc"ün əsas qaynaqlarından biri kimi dini dəyərlərə söykəndiyi iddia olunan siyasi-ideoloji baxışlar çıxış edir. Bu qəbildən olan idelogiyaların yayılması üçün dini inamın transnasional səciyyə daşımasından yararlanaraq özlərinə sosial baza toplamaq üçün ictimai şüurda müqəddəs qəbul olunan məfhumlardan, dini dəyərlərdən, dini mərasim və ayinlərdən sui-istifadə edilir. Mərhələli şəkildə ideologiyanın hədəf ölkənin əhalisinin şüuruna yeridilməsinə cəhdlər göstərilir. Davamlı missioner fəaliyyəti ilə yanaşı, çox vaxt belə "ideoloji köçürmə"nin icraçılarının hədəf ölkədən olmasına üstünlük verilir.

Nəticə olaraq qeyd oluna bilər ki, tarix boyu kiçik qruplardan böyük sosial qruplaradək, həmçinin dövlətlər, regional və qlobal səciyyə daşıyan qurumlar arasında müxtəlif maraqlar uğrunda mübarizə gedib. Məqsəd dəyişməsə də, mübarizənin üsul və vasitələri, istifadə olunan resursları şəraitə və dövrün reallığına görə dəyişib. İnsanlar sülh tərəfdarı olsalar da, milli maraqlar həmişə daha üstün tutulub. Güc amili əhəmiyyətini itirməyib və müasir dövrdə həm də "yumşaq güc" kimi qeyri-zorakı forma alaraq dini dəyərlər üzərindən də həyata keçirilir. Beləliklə, "yumşaq güc" əksər hallarda hədəf ölkənin öz milli maraqlarının hesabına başqasının mənafeyinə xidmət göstərir.

Məncə, düşünməyə dəyər!

**Ruslan Əsgərov**

## SƏUDİYYƏLİ QADINLAR ZABİT RÜTBƏSİ ALACAQLAR

Səudiyyə Ərəbistanının Müdafiə Nazirliyi qadınların səlahiyyətlərinin artırılması ilə bağlı əhəmiyyətli açıqlama verib. ArabNews-un verdiyi xəbərə görə, artıq səudiyyəli qadınlar ölkənin silahlı qüvvələrində zabit rütbəsi ala biləcəklər, halbuki əvvəllər onlar orduda yalnız xidmət edə bilərdilər.

Qeyd edək ki, son illər səudiyyəli qadınlar getdikcə daha çox ənənəvi "kişi" peşələrinə - diplomat, idman şərhçisi, taksi sürücüsü və təyyarə pilotu - yiyələnirlər.



## Müsəlmanları sıxışdıran Çin rəsmilərinin ABŞ-a girməsi məhdudlaşdırılır

ABŞ Dövlət Departamentinin mətbuat katibliyinin yaydığı açıqlamada bildirilir ki, Vaşinqton bir sıra Çin rəsmiləri və ailələrinə müsəlman azlıqlara göstərilən təzyiqlərə görə viza məhdudiyyəti tətbiq edir.



"Bu gün Çinin Sincan bölgəsində uyğur, qazax və digər müsəlman azlıqların üzvlərinin tutulması və ya onlarla pis rəftar edilməsinə görə məsuliyyət daşıyan və bu işlərlə hər hansı əlaqəsi olan Çin hökuməti və Kommunist Partiyasının rəsmiləri üçün viza məhdudiyyətlərinin tətbiq olunduğunu elan edirəm", - deyə dövlət katibi Mayk Pompeo açıqlama verib.

Qeyd olunur ki, məhdudiyyətlər qara siyahıdakı Çin rəsmilərinin ailə üzvlərinə də təsir göstərə bilər.

ABŞ dəfələrlə Çinin Sincan-Uyğur muxtar bölgəsində yaşayan uyğurlar və digər müsəlman azlıqlara qarşı etdiyi haqsız rəftara görə ölkəni tənqid edib.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA DİN AMİLİ

Hər bir insan aid olduğu cəmiyyətin xüsusiyyətlərini özündə ehtiva etməklə yanaşı, yaşadığı həyat təcrübəsi nəticəsində özünəməxsus xarakteri formalaşır. Və bu özünəməxsusluq onun şəxsiyyətinin əsasını təşkil edir. Psixoloqlar şəxsiyyətə konkret tərif verməsələr də, ümumi fikir budur ki, şəxsiyyət fərdin daxili və xarici aləmlə qurduğu, onu digərlərindən ayıran, davamlı və artıq formalaşmış münasibətlər toplusudur. Başqa sözlə, şəxsiyyət anadangəlmə və sonradan qazanılan, sosial faktorların təsiri ilə kiçik yaşlardan formalaşan, dəyişikliyə meyilli olmayan, fərdə məxsus düşüncə, qərar qəbul etmə və davranış özəlliklərinin toplusundan ibarətdir. Bu mənada insan bio-psixo-sosio varlıqdır. Müxtəlif duyğu, düşüncə və davranışlara sahib olması onu kainatın ən mürəkkəb varlığına çevirir.

İnsanın şəxsiyyəti ilə din arasında qarşılıqlı əlaqə mövcuddur. Din anadangəlmə insanın ruhunun dərinliklərində saxladığı və tədricən inkişaf etdirdiyi potensial ehtiyac kimi qəbul edilir. Tədqiqatlar dini etiqad və ibadətlərin fərdlərin zehni sağlamlığına müsbət təsir göstərdiyini ortaya qoyur. Eyni zamanda, dini inanc və dəyərlər gündəlik həyatda fərdə şəxsi, mənəvi və sosial problemlərin öhdəsindən gəlməyə kömək edir. Xüsusilə, narsist və hedonist əxlaqı vurğulayan, anlıq həzz axtarışlarının ön planda olduğu müasir istehlak cəmiyyətində sosial məsuliyyət hissini aşılaması baxımından dinin rolu danılmazdır.

Pakistanlı məşhur ictimai-siyasi xadim Məhəmməd İqbala görə, dinin əsas hədəfi və funksiyası insanın şəxsiyyətini gücləndirməkdir. Çünki insanın kortəbii sahib olduğu mənliyi daim dağılmağa və çökməyə meyillidir. Din isə mənliyin müxtəlif elementlərini bir mərkəzdə toplamaq qabiliyyəti verir və insana yeni bir şəxsiyyət qazandırır.

Uşağın böyüdüyü mühit və aldığı təhsil onun şəxsiyyətinin formalaşmasında müəyyən izlər buraxır. Uşaq dünyaya dindar gəlmir. Onda dini meylin ortaya çıxması və dini inancın inkişaf etməsində başlanğıc nöqtəsi kimi "himayə altında olmaq" şüurunun formalaşması rol oynayır. Himayə altında olmaq, başqalarından sevgi, mərhəmət, kömək görmək və özünü güvəndə hiss etmək insanın təməl ehtiyaclarındandır. Bu baxımdan ata-ananın varlığı uşaqda inam hissini doğurur. Ancaq müəyyən yaşdan sonra ata-ananın da ehtiyaclı olduğunu, hər şeyə güclərinin yetmədiyini görmək uşağın Uca Yaradanın himayəsinə sığınmasına, Ona bağlanmasına səbəb olur.

Digər tərəfdən, uşaqlar bitib tükənməyən maraq duyğusuna sahibdirlər. Ətrafda baş verən hadisələrin, varlıqların səbəbini tapmağa maraqlıdırlar. Şüur xaricindəki bu axtarışlar uşağın sonsuzluğa olan meylini ortaya qoyur ki, bu da uşaqda dini inancın və Tanrı axtarışının hərəkət nöqtəsi kimi qəbul edilir. Beləliklə, sevgi və mərhəmət, müdafiə və güvən, maraq, axtarış və bu kimi bir çox duyğu və təcrübələr dini inancın oyanmasında, dini şüurun formalaşmasında müəyyən rol oynayır.

İnanmaq uşaqlar üçün təbii, asan işdir. Uşağın beyni mücərrəd şeyləri qavrayacaq dərəcədə inkişaf etmədiyindən inancın səbəbini araşdıra bilmir. Dolayısı ilə hər şeyi mühakimə etmədən olduğu kimi qəbul edir və inanır. Kiçik yaşlardan uşaqda dinə maraq və istəyin formalaşmasına ata-ana və yetişdiyi mühit böyük təsir göstərir.

İbtidai cəmiyyətlərdən tutmuş müasir dövrə qədər insan şəxsiyyətinin formalaşmasında din mühüm rol oynayır. Yer üzündə dinlə müsbət və ya mənfi, birbaşa və ya dolayı yolla əlaqəsi olmayan insan tapmaq, demək olar ki, qeyri-mümkündür. Ancaq din insan şəxsiyyətini təsir altına aldığı kimi, özü də şəxsiyyətin keyfiyyətlərindən təsirlənir. Belə ki, insanın dinə münasibətinin fərqli olması və dini həyatında fərqli şəkildə yaşaması müxtəlif dindarlıq tiplərini ortaya çıxarır.

İnsanın dini inancı, duyğu, düşüncə və şübhələri, dinə münasibəti, onun prinsiplərini dəyərləndirmə tərzi bir-birindən fərqlənir. Odur ki, eyni dinə mənsub insanlar öz dinlərini eyni keyfiyyətdə və səviyyədə yaşamırlar. Amerikalı psixoloq, şəxsiyyətin xüsusiyyətləri nəzəriyyəsinin banisi Qordon Allportun təklif etdiyi və əksər psixoloqlar tərəfindən qəbul edilən iki dindarlıq tipi var: zahiri dindarlıq (extrinsic religiousness) və daxili dindarlıq (intrinsic religiousness).

Zahiri dindarlıq insanın digər tələbatlarının ödənilməsi üçün dinin vasitə halına gətirilməsidir. Bu cür dindarlar dini cəmiyyətdə status qazanmaq, sosiallaşmaq, təsəlli tapmaq, özünü güvəndə hiss etmək üçün vasitəyə çevirirlər. Onlar üçün din şəxsi maraqlarından kənarda hər hansı dəyərə sahib deyil. Bələləri, adətən, dara düşdükdə dinə və ya Tanrıya müraciət edirlər. Üstəlik, onlar xeyirxahlıqdan uzaqdırlar. Hər hansı mənfəət əldə edəcəkləri təqdirdə kömək əllərini uzadırlar.

Daxili dindarlıq zamanı isə din hakim mövqeyə sahibdir. Mənfəətpərəst olmayan bu tip dindarlar bütün digər arzu və ehtiyaclarını inanclarının hökmlərinə tabe edirlər. Onlara görə, insanın mənliyinə xidmət etməsi səbəbilə din xarici dəyər deyil, insanın fövqündə dayanan, ilahi varlığın iradəsinə uyğun olaraq insanı dəyişməyə məcbur edən, onun mənliyini bütünlüklə əhatəyə alan daxili dəyərdir. Bu tip dindarlıq yaxşı niyyət, dözümlülük, başqalarına hörmət, dini buyuruq və qadağalara riayət, ibadətlərdə davamlılıq kimi xüsusiyyətlərlə xarakterizə olunur.

Əslində, dindarlıq olduqca geniş və qarışıq məfhumdur. Çünki o, özündə ideologiya,



təcrübə, təsir, ibadət və zehni cəhətləri ehtiva edir. Buna əsasən, fərdin din dedikdə nə başa düşdüyü, onu nə dərəcədə doğru yaşadığı olduqca önəmlidir. Əgər fərd dinin özünü anlamadan sadəcə ibadət və ayinləri yerinə yetirməyə çalışırsa, çox güman, dindən o qədər də təsirlənməyəcək. Başqa sözlə desək, dinin onun şəxsiyyətinin formalaşmasında heç bir rolu olmayacaq.

Hesab olunur ki, gənclərin dəyərlərə sahib olması və onları qorumasında din mühüm faktorlardan biridir. Ailə dəyərlərinə bağlılıq, ata-anaya, böyüklərə hörmət, səmimiyyət, nəfsi nəzarətdə saxlamaq, çalışqanlıq, xeyirxahlıq kimi dəyərlərlə dindarlıq arasında birbaşa əlaqənin olduğu araşdırmalarla təsdiqlənmişdir.

Beləliklə, bir insanın dini rəftar və davranışlarının davamlılığı onun şəxsiyyətinin və dəyərlər sisteminin formalaşmasında böyük rol oynayır. Digər tərəfdən, insanın şəxsi keyfiyyət və xüsusiyyətləri onun dinə münasibət və davranışlarına təsirsiz ötüşmür. Çünki bir fərd yalnız şəxsi keyfiyyətlərinin, dünyagörüşünün imkan verdiyi dərəcədə dindar ola bilər.

Hazırladı: **Güney Namazova**

## Əks-səda

### Məkkə

Bir gün bir nəfər təzə Məkkədən gələn hacıya çox ürəyim yandı. Həqiqətdə də bu cür adamlara ürək yanmalıdır. Çünki şəhərində oturduğu yerdə axundlar o qədər yazığa altdan-üstdən deyirlər ki, sən müstətesən, beləsən, şeləsən, binəvanı üzdən-gözdən salırlar. Durur, az-çox nə mayası var, üzləyir, bir qədər pul götürüb düşür bərri-biyabanə, durma gəldim, Məkkə. Günə bir mənzil, təyyi-mənazil, qəti-mərahil, yetişcək haman fövri bir naxoşluq yapışır yaxasından, öl ki öləsən. Necə ki, hər il minlərlə və ələxüsus bu il otuz altı min nəfər ölübdür...

Həcc Fürui-dindən olub, onun barəsində danışmaq nəinki "Molla Nəsrəddin"in, bəlkə onun babasının da hünəri deyil və camaat da ki, hər il yüz minlərlə gedib ora, yüz min dəvəni, camışı, inəyi, qoyunu qurban edib, dübarə pul verib basdırırlar torpağa, bir hikmətdir ki, ona heç kəs əl apara bilməz. Ancaq mənim bu danışığım ondan ötrüdür ki, öz günümə ağlayıram və hesab eləyirəm ki, ildə bu qədər adam ki Məkkəyə gedir və çoxu da dərəceyi-şəhadətə yetişir, onların hər birisinə behiştdə yetmiş min qəsr zəbərcəddən, yaqutdan versələr və hər qəsri yetmiş min dəfə bu dünyadan böyük olsa, mən ondan qorxuram ki, bizlərə dəxi cənnətdə yer qalmıya. Və işdi, Allah eləməmiş, biz də getməli olsaq, üzrümüzü istəyələr. Odur ki, bunların hər il bu qədər qırılmağın eşidəndə qısqanmağım tutur və həsəd apararam buların o səadətinə ki, Məkkə kimi müqəddəs bir şəhərdə can cahan-afarinə tapşırırlar, çünki onsuz da çoxusu əgər vətənlərində vəfat etsələr, vəsiyyət edəcəklər ki, sümüklərini yığıb-yığışdırıb Kərbəlayi-müəllayə aparsınlar.

İndi burada bir iş var ki, görək aya, bu gedənlər hamısı sədaqət iləmi gedirlər, ya bir biclikdir ki, eləyirlər, xalqın gözünə torpaq atsınlar? Bu barədə biri neçə kəlmə danışmalı ki, işin həqiqəti meydana çıxsın.

Mən elə hacı tanıyıram ki, özünün heç bir zada etiqadı olmaya-olmaya Məkkəyə müşərrəf olur və gedən zaman avam soruşanda ki, filankəs, eşitmişəm, Həccə gedirsən, deyir: "Gərək insanın başı bir yerə bağlı olsun, yoxsa bir para təbiilər kimi, heç zada inanmamaq adamı başıaçıq qoyar". Amma bunun əvəzində, özü kimi bir laməzhəbə də rast gələndə deyir ki, gedirəm Məkkəyə məhzi görüm bu nadanlar, bu vəhşilər ki, hər tərəfdən ora cəm olurlar, nə hoqqabazlıq eləyirlər.

Bizim hacıların içində bu cürüləri çox-çoxdur və aləvə elələri də var ki, üç-dörd yüz manat xərc qoyub Məkkəyə gedəndə və Allah əcəldən aman verib salamat qayıdıb gələndə, öz yerində Məkkənin xərcini bir ildə çıxardır. Gündə min dəfə "getdiyim beytə and olsun" deyib malı birə-üç qiymətə satır və çox olur ki, on Məkkə xərcinə bərabər bir əmanət gətirib tapşırırlar ona, salır içəriyə, əmanət sahibi cınqırın çəkəndə camaat yığışıb ağzın-burnun əzirlər ki, sən niyə hacıya şər atırsan və böhtan deyirsən?

Bunların hamısı ilə belə mənim heç kəs ilə işim yoxdur, hər kəs nə bilirsə eləsin, Hacı Məmmədvəli kişinin pulu öz puludur, istəyir tüməni on şahı ilə icariyə verir, istəyir aparıb dəvəyə verib, kəsir basdırır torpağa və habelə istəyir pulu öz vətənində firəng qəndinə, nemsə çayına verib mərsiyə oxutdurur, yainki aparıb Məkkə yolunda tökür əcnəbilərin cibinə. Ancaq mənim deyəcək sözüm bircə budur ki, Hacı Məmmədvəli öz vətənində "Həmd" surəsini dürüst öyrənib və mənasiki-həcci tamam-kamal bilib, sora yerindən dəbərsin və həccə getmək xəyalına düşsün. Daha yollarda urusların murdar vaqonlarında və ingilislərin murdar paraxodlarında "Həmd" surəsi höccəliyə-höccəliyə getməsin ki, çox günahdır və cayiz deyil o müqəddəs ayələr nəcis yerlərdə tələffüz olunsun...

Və hər kəs də sarsaxlayıb desə ki, həccə gedənlər niyə bu qədər pulları aparıb sərf edirlər, heç olmasa hərəsi bir lirə osmanlı dövlətinə vermir ki, onların xəzinəsi dolub, ehtiyacları olmasın ki, ali-osmanın nəcmi-baxtər kimi qiymətli təxtini satmaq istəsinlər, yainki labüd qalıb taci-şahini xarici yanında girov qoymaq xəyallarından keçsin. Onda mən o adama bu cavabı verərəm ki, bular bütün axmaq və biməni sözlərdir ki, o danışır. Çünki əvvəla, bu Məkkə yolunda xərc olunan pullara birə-min bu dünyada, birə-min axirətdə əvəz veriləcəkdir.

İkincisi, ora yığışan adamın fikri gərək həmişə axirət yanında olsun və cəmi əlaqəsin dünya və mafihadan kəssin. Hərgah bu cür fikirlər qəlbindən keçmiş olsa, lazımdır əlli dəvə kəsib torpağa quylatsın ki, ondan bu cür böyük tərki-övla baş verdi.

Üçüncüsü də, ora yığışanların biri buxaralıdır, biri qafqazlıdır, biri (Allah salamət eləsin) iranlıdır, biri əfqanlı, biri cavəli, biri hindustanlıdır, cəfəri, həmbəli, şafeyi, maliki, vəhabi... Min məzhəb qarışıb bir-birinə. Onlara nə herəc vaqe olub ki, osmanlı fikri çəksinlər. Qoy canı çıxsın, pulsuzluqdan dərmədağın dağılsın.

**Əliqulu Qəmküsar**
Molla Nəsrəddin
3 fevral 1913-cü il, № 4

# ABŞ-DA KİLSƏLƏRƏ GEDƏNLƏRİN SAYI AZALIR

Pyu Araşdırmalar Mərkəzinin ABŞ-da dini məsələlərə dair apardığı ictimai rəy sorğusunun nəticələri göstərib ki, ölkədə kilsələrə gələnlərin sayı azalmaqdadır. Hesabatda qeyd edilir ki, ölkədə xristianların sayı sürətlə azalır.

Yaşlı amerikalıların yalnız 65 faizi özlərini xristian hesab edir. Müqayisə üçün qeyd edək ki, 2009-cu ildə bu göstərici 77 faizə bərabər idi.

Eyni zamanda, 2009-cu ildən indiyə qədər ABŞ-dakı ateist və aqnostiklərin sayı 9 faiz artıb. Bu müddətdə protestantizm 8 faiz, katolisizm isə 3 faiz azalıb.

Məruzədə qeyd edilir ki, mütəmadi olaraq kilsələrə gedənlərin sayının azalması müşahidə olunur. Ayda azı 1-2 dəfə kilsəyə getdiklərini bildirən respondentlərin sayı 7 faiz azalıb. Rəyi soruşulanların 54 faizi kilsəyə ildə bir neçə dəfə və ya daha gec-gec getdiklərini, 45 faizi isə kilsəyə hər ay getdiklərini bildiriblər.

Araşdırma müəlliflərinin sözlərinə görə, bu dəyişiklik gənclər arasında daha çox müşahidə olunur. Sorğunun gənc iştirakçılarının təqribən yarısı özlərini xristian, 40 faizi isə ümumiyyətlə qeyri-dindar hesab etdiklərini bildiriblər. Araşdırma göstərib ki, respublikaçılarla müqayisədə demokratlar arasında dindarlıqdan imtinaya meyillilik daha güclüdür, lakin dinə inanmayanların sayı hər iki partiyada artmaqdadır. Qeyd edək ki, bu sorğu 2018 və 2019-cu illərdə ABŞ-ın 12700-dən çox yaşlı sakini arasında aparılıb.

# UKRAYNADA DİNİ MƏSƏLƏLƏRLƏ MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİ MƏŞĞUL OLACAQ



Ukraynanın yenidən qurulmağa başlanılan Mədəniyyət, Gənclər və İdman Nazirliyi 1 yanvar 2020-ci il tarixindən yeni model əsasında işləməyi planlaşdırır.

"Buna görə Nazirlər Kabineti qurumun fəaliyyət göstərməsi üçün minimum zəruri ehtiyatlara və işçilərə sahib olduğunu müəyyən etmәlidir", - deyə nazirliyin mətbuat xidmətinin açıqlamasında bildirilir.

Qeyd olunur ki, Mədəniyyət və İdman Nazirliyi fəaliyyətində incəsənət, yaradıcılıq, mədəni irsin qorunması, idman növləri, KİV, xeyriyyəçilik, dini və etno-milli siyasət, işğal olunmuş ərazilərin humanitar və informasiya siyasəti, gənclər siyasəti və turizm kimi ictimai həyatın bu sahələrinə görə cavabdehlik daşıyacaq.

# KATOLİK YEPİSKOPLAR ÖLÜM HÖKMÜNÜN BƏRPASINA ETİRAZ EDİRLƏR



"Catholicnewsagency"nin verdiyi xəbərə görə, ABŞ-ın İndiana ştatının katolik yepiskopları ölüm hökmünün bərpasına qarşı çıxırlar. Onlar bildirirlər ki, bu cəzanın qurbanlara heç bir köməyi dəymir və cinayətkarları da əməllərindən çəkindirmir.

Federal cinayətkarlar üçün edam cəzasının planlaşdırılan bərpası ərəfəsində İndiana yepiskopları ABŞ Prezidenti Donald Trampa və administrasiyaya qərarın ləğvi ilə bağlı müraciət ediblər. "Federal hökumətin iyul ayında federal cinayətkarların edam edilməsinə dair 16 illik dövlət moratoriumunun ləğvi barədə qərarını təəssüfedici, lazımsız və mənəvi cəhətdən əsassız hesab edirik. Xüsusilə, ABŞ katolik kilsəsində oktyabrın həyata hörmət ayı kimi qeyd olunduğunu, bütün dua və ayinlərdə həyatın dəyərinin vurğulandığını nəzərə alsaq, bu qərar yersizdir. Biz, İndiana ştatının yepiskopları, Prezident Trampdan ABŞ Ədliyyə Nazirliyinin bu ilin sonunda dövlətimizdə edam cəzasının bərpası barədə qərarını ləğv etməsini və federal cinayətkarların cəzalarının ömürlük həbs ilə məhdudlaşdırılmasını xahiş edirik", - deyə müraciətdə bildirilib.

Qeyd edək ki, cari il iyulun 25-də ABŞ Ədliyyə Nazirliyi "ən ağır cinayət qurbanları üçün ədalət naminə" ştatda edam cəzasının bərpa olunduğunu elan etmişdi.

Yepiskopların müraciəti qəbul olunmasa, federal cinayətkara tətbiq olunan ilk ölüm cəzası dekabrın 9-da baş tutacaq. Bu, 1999-cu ildə bir neçə cinayətdə, o cümlədən 3 nəfərdən ibarət ailəni öldürməkdə günahlandırılan Daniyel Lyus Li olacaq.

# BRİTANİYADA DİNİ TƏHSİL HAQQINDA QANUNA MƏHƏL QOYMAYAN MƏKTƏBLƏRİN NİSBƏTİ ARTIB



Britaniyada son dövrlər daha çox dövlət məktəblərində dini təhsil haqqında qanuna məhəl qoyulmur və getdikcə din dərsləri tədris proqramından çıxarılır. Belə bir fənnin hələ də keçirildiyi yerlərdə isə valideynlər övladlarını bu dərslərdən uzaqlaşdırırlar. Bu barədə "christiantoday" xəbər verib.

Dini Təhsil Müəllimlərinin Milli Dərnəyi (NATRE) tərəfindən aparılan araşdırmanın nəticələrinə əsasən məlum olub ki, dini təhsilə yer verməyən məktəblərin payı 2015-2016-cı tədris ili ilə müqayisədə 34%-dən 40%-ə çatıb. Akademik məktəblər üçün bu göstərici dəyişməz olaraq qalıb: onlardan təqribən yarısı hələ də ən vacib 4-cü mərhələdə, yəni 14-16 yaşlı məktəblilər üçün öz proqramlarına "dini təhsil" fənnini salmayıblar. Hesabat müəllifləri qeyd edirlər ki, ümumilikdə dini təhsil verməyən akademik məktəblərin sayı təqribən 20% artıb. Bu isə daha çox məzunun dini məsələlərdən məlumatsız olması deməkdir.

İngiltərənin dövlət məktəbləri imtiyazlarından asılı olmayaraq, bütün sinif şagirdləri üçün dini təhsil proqramına sahib olmalıdır. Ancaq tədqiqat göstərib ki, əksər məktəblər (80%) bu fənni 2018-2019-cu tədris ili proqramlarına daxil etmək üçün müraciət etməyiblər. Bu səbəbdən proqramlarda fənnin ümumi həcmi 2012-ci ildən bəri 50%-ə qədər azalıb. NATRE analitikləri hökumətin bu azalma ilə mübarizə üçün təcili tədbirlər görməli olduğunu, yəni məcburi dini təhsil üçün milli plan hazırlamalı olduğunu vurğulayırlar.

NATRE-nin sədri Ben Vud bildirib ki, bir çox məktəblər şagirdlərini müasir dini təhsildən məhrum edirlər, halbuki getdikcə artan plüralist cəmiyyətimizdə buna böyük ehtiyac var: "Dini təhsil dövlət tərəfindən məktəb kurikulumunun ən vacib mövzusu hesab olunur, çünki şagirdlərə insanlar, ətraf mühit və mənəvi məsələlər haqqında məlumat verir. Şagirdlərin bu biliklərə yiyələnməsindən imtina edənlər onları müasir həyatın ən vacib sahəsinə uyğunlaşmadan məhrum qoyurlar, baxmayaraq ki, hər məktəbdə hər bir şagirdin bu biliyə tam haqqı var".

# Krımda XVI əsrə aid Xan məscidi bərpa ediləcək



Krımın Baxçasaray şəhərində yerləşən Xan Sarayı ərazisindəki məscid bərpa ediləcək.

"Rusiya Mədəniyyət Nazirliyi yanında Mədəni İrs üzrə Elmi-Metodik Şuranın "Memarlıq abidələri" bölməsinin iclasında Xan məscidinin mədəni irs yerini qorumaq üçün hərtərəfli tədqiqatlara əsaslanan layihə sənədləri təsdiqlənib", - deyə komitənin açıqlamasında bildirilir.

Məlumata əsasən, layihə Krımın "Kiramet" təşkilatı tərəfindən hazırlanıb. Layihənin dəyəri açıqlanmasa da, onun Krımın inkişafı üçün federal hədəf proqramında nəzərdə tutulan Xan Sarayının bərpası çərçivəsində həyata keçiriləcəyi bildirilir.

Xan Sarayı kompleksinin bir hissəsi olan XVI əsrə aid məscid hazırda fəaliyyət göstərir.

Qeyd edək ki, XVI əsrdə inşa edilən Xan Sarayı Krım xanlarının keçmiş iqamətgahıdır və dünyada Krım-tatar saray memarlığının yeganə nümunəsidir. Ümumdünya əhəmiyyətli tarixi-mədəni abidə Baxçasaray tarixi-mədəniyyət qoruğunun tərkibinə daxildir.

# İNDONEZİYA POLİSİ "KROSSDRESSER"LƏRLƏ MÜBARİZƏ APARIR

İndoneziya ictimaiyyəti sosial şəbəkələrin diqqətini çəkən təhlükəli fenomendən ciddi narahatdır. Belə ki, bəzi kişilər hicab və niqab geyinərək məscidlərin qadınlar üçün nəzərdə tutulmuş hissələrinə daxil olurlar.

"Coconuts"-ın məlumatına əsasən, əks cinsin paltarlarını geyindiklərinə görə "krossdresser" adı verilən həmin kişilər məscidlərin qadınlar üçün nəzərdə tutulmuş hissələrində şəkil çəkdirərək sosial şəbəkələrdə yayırlar.

İndoneziyanın və dünyanın ən böyük İslam təşkilatı "Məhəmmədiyyə" ölkə polisini qadınların şəxsi məkanına və təhlükəsizliyinə xələl gətirən "krossdresser"lərə qarşı tədbir görməyə çağırıb. Təşkilatın baş katibi Əbdül Muti bildirib ki, güc tədbirləri ilə yanaşı, psixi pozğunluqdan əziyyət çəkən bu insanlara mütəxəssis yardımı və mənəvi dəstək göstərmək lazımdır.

# Niderland müsəlmanlara qarşı ən dostcanlı ölkə seçilib



Amerikanın "Pew Research Center" analitik təşkilatının yeni sosial araşdırmalarına əsasən Avropanın müsəlmanlara qarşı ən dostcanlı ölkəsi müəyyənləşib.

Tədqiqatçılar Qərbi Avropanın 15 ölkəsində təsadüfi seçilmiş 24.499 nəfər arasında sorğu keçiriblər. Avropalılara cəmi iki sual verilib: onlar müsəlman qonşularının olmasına və ailə üzvləri arasında müsəlmanın olmasına razıdırlarmı? Məlum olub ki, Qərbi Avropada müsəlmanlara qarşı ən dostcanlı ölkə Niderlanddır. İkinci yerdə isə Danimarka gəlir.

Sorğuda iştirak edən Niderland vətəndaşlarının 96%-i müsəlman qonşularının olmasına, 88%-i isə ailə üzvləri arasında müsəlmanın olmasına razıdırlar. Maraqlısı budur ki, Niderlandda niqab taxmaq qadağandır, qurban ayininin isə qadağan edilməsi müzakirə olunur.

Bundan başqa, Niderland miqrant müsəlman əhalinin nisbətinin yerli əhalidən çox olması baxımından Avropada birinci yerdə gəlir və ildən-ilə demoqrafik səbəblərə görə bu disbalans artır. Hələ 2003-cü ildə Niderland, demək olar ki, bütün miqrantları qəbul etməklə Avropada ən yüksək immiqrant axını göstəricisinə sahib oldu. Niderland cəmiyyəti isə fərqli irq və dinlərə mənsub insanların bir arada yaşaması təcrübəsinin ən yaxşı nümunəsi sayıldı. Nəticədə bu gün Niderlandın, demək olar ki, hər beşinci sakini, əsasən, müsəlman ölkələrindən gələn miqrantlardır.

# İranda ilk dəfə qadın pilotlar uçuş həyata keçiriblər



İranın aviasiya tarixində ilk dəfə iki qadın pilot Tehran-Məşhəd aviareysini həyata keçiriblər. Kapitan Neşət Cahangiri və köməkçisi Firuzə Firuzi göyərtəsində 171 sərnişin olan təyyarəni uğurla Tehrandan Məşhəd şəhərinə çatdırıblar. İranın hava nəqliyyatında ilk dəfə qadının təyyarə idarə etməsi Tehranda tarixi hadisə kimi qeyd olunub.

# QƏTƏRDƏ SAXTA XƏBƏRLƏRLƏ MÜBARİZƏYƏ BAŞLANILIB




Qətər alimləri medianın qərəzsizliyini qiymətləndirməyə imkan verəcək xüsusi proqram hazırlayıblar. Bu barədə Həməd Universitetinin nəzdində Kompüter Tədqiqatları üzrə Qətər İnstitutunun baş elmi işçisi Preslav Nakov məlumat verib.

Proqram medianın qərəzsizliyini müəyyənləşdirə və təbliğat elementlərini aşkar edə bilir. Bu işdə aqreqator müxtəlif parametrləri, o cümlədən mətnin emosional çalarını, qorxutma elementlərinin mövcudluğunu, məntiqi ziddiyyətləri və s. nəzərə alır.

"Biz ərəb dilindən tərcümədə "xəbərdarlıq" mənasını verən, KİV-in təqdim etdiyi faktları yoxlayan, fərqli medianın qərəzliliyini göstərən, mətnlərdə və ya görüntülərdə təbliğatın olub-olmadığına dair xəbərdarlıq edən "TANBİH" aqreqatorunu yaratdıq. Təbliğat aparmaq üçün müəyyən üsullardan istifadə etmək lazımdır, əks halda, bu, auditoriyada dərin iz buraxmayacaq", - deyə Nakov bildirib.

"TANBİH" aqreqatoru (xəbərdarlıq - IN) ərəb və ingilis dillərində yazılmış dünyanın aparıcı nəşrlərinin materialları üzərində sınaqdan keçirilib.

Nakov vurğulayıb ki, saxta məlumatlar əksər hallarda nəyin həqiqət və ya uydurma olduğunu bilməyən insanlar tərəfindən yayılır. Qətər alimlərinin işləyib hazırladığı bu proqram insanlarda tənqidi düşüncə tərzini inkişaf etdirməyə, habelə dezinformasiya ilə mübarizəyə töhfə vermək üçün hazırlanıb.

# LİONDA FRANSA MÜSƏLMAN SİVİLİZASİYASI İNSTİTUTU AÇILIB



Lionda Fransa Müsəlman Sivilizasiyası İnstitutunun təntənəli açılış mərasimi baş tutub. Mərasimdə Fransanın Daxili işlər naziri Kristof Kastaner, Lion şəhərinin meri Cerard Kollon, fransız siyasətçiləri və müsəlman icmasının üzvləri iştirak ediblər.

K.Kastaner institutun məqsədinin İslam mədəniyyəti, tarixi və müsəlman xalqlarının adət-ənənələrini tanıtmaq olduğunu söyləyib. Həmçinin İslam dininə qarşı qərəzli mövqeyin aradan qaldırılmasında institutun rolunun vacibliyini də vurğulayıb.

Lion Böyük Məscidinin imamı və institutun prezidenti Kemel Kabtane institutun qapılarının təkcə müsəlmanlar üçün deyil, hər kəsə açıq olduğunu bildirib. İslam barəsində mənfi rəylərlə mübarizəin yalnız elm və mədəniyyətin köməyi ilə mümkün olduğunu deyən Kabtane qeyd edib ki, Fransadakı məscidlərdə işləyəcək imamlar institutda təlim keçəcəklər.

Qeyd edək ki, yaradılma tarixi 38 il əvvələ gedib çıxan institutun inşası üçün Lion səlahiyyətliləri, müxtəlif şirkətlər, müsəlman icması və Səudiyyə Ərəbistanı 7 milyon avro ayırıb.

# Papa: "İqlim dəyişikliyi əxlaqın zəifləməsi və bəşəriyyətin deqradasiyası əlaqədardır"



Catholicnewsagency xəbər verir ki, Roma Katolik Kilsəsinin rəhbəri BMT-nin sammitindəki çıxışında iqlim dəyişikliyini əxlaqın zəifləməsi və bəşəriy-yətin deqradasiyası ilə izah edib.

"İqlim dəyişikliyi problemi etikanın, əxlaqın, birlik ruhunun və sosial ədalətin zəifləməsi ilə birbaşa əlaqəlidir" - deyən pontifikin sözlərinə görə, dövrümüzün ən ciddi və narahatedici hadisələrindən biri olan bu qlobal təhlükə ilə mübarizə aparmaq üçün bəşəriyyət yüksək mənəvi keyfiyyətlərinə - "dürüstlük, məsuliyyət və cəsarət"ə müraciət etməlidir.

Papa BMT-ni mövcud istehlak və istehsal nümunələrinin önəmi barədə düşünməyə və sülhün bərpasına xidmət üçün mümkün olan hər şeyi etməyə çağırıb. "İndiki post-sənaye dövrü yaddaşlarda tarixin ən məsuliyyətsiz dövrlərindən biri kimi qalsa da, gələcək nəsillərin belə bir ağır məsuliyyət yükünü üzərinə götürdüyü üçün bizi minnətdarlıqla xatırlayacağına dair hələ ümidimiz var", - deyə pontifik əlavə edib.

# XRİSTİAN FƏALLAR 24 SAATI SOSİAL ŞƏBƏKƏLƏRSİZ, TƏKBAŞINA KEÇİRMƏYİ TƏKLİF EDİRLƏR

Ölkədə tənhalıq və təcridolunma ilə mübarizə hərəkatına rəhbərlik edən Britaniyanın Linking Lives UK xristian xeyriyyə təşkilatı problemin ciddiliyini və hərəkatın məqsədlərini tam anlamaq üçün 24 saatı sosial şəbəkələrsiz, təkbaşına keçirməyi təklif edir.

"Kilidlənmiş tənhalıq" (Loneliness Lock-in) adlı birgünlük kampaniya hər kəsə ölkədə bir çox yaşlı, əlil və xəstə insanların taleyinə çevrilən tənha həyatın dəhşətini yaşamağa imkan verəcəkdir. Təşkilat üzvləri vətəndaşların diqqətini tənhalığın və sosial təcridolunmanın əsas problemlərinə çəkmək istəyir, onların köməyinə xüsusi ümidlər bəslədiklərini bildirirlər.

Qeyd edək ki, Age UK agentliyinin verdiyi məlumata görə, ölkədə xroniki tənhalıqda yaşayan qocaların sayı artıq 1,2 milyondur. Onlardan yarım milyona qədəri həftənin 5-6 gününü heç kimlə ünsiyyətdə olmadan 4 divar arasında keçirirlər. Əlillərə dəstək Disabled Sharity Sense xeyriyyə təşkilatının hesabatında isə göstərilir ki, ölkədəki əlillərin, demək olar ki, yarısı tənha həyat sürürlər. Həmçinin Co-op və Qırmızı Xaç Cəmiyyətinin İngiltərə xidmətinin birgə apardığı araşdırmaya əsasən məlum olur ki, ölkədəki müxtəlif yaş kateqoriyasına aid doqquz milyondan çox insan "davamlı və ya tez-tez" ağır tənhalıqdan əziyyət çəkirlər.

# Bilirsinizmi?

**9 noyabr** - Azərbaycanda Dövlət Bayrağı günüdür. 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti üçrəngli (mavi, qırmızı, yaşıl) dövlət bayrağının qəbul olunması barədə qərar çıxarıb. Bu, Cümhuriyyətin sayca ikinci bayrağı idi. Azərbaycan milli hökuməti hələ Gəncədə yerləşərkən, 1918-ci il iyunun 24-də üzərində ağ ay və səkkizguşəli ulduz təsvir olunmuş al-qırmızı bayrağı dövlətin rəmzi olaraq qəbul etmişdi. Ölkəmiz müstəqilliyini bərpa edəndən (1991) sonra Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanın dövlət rəmzi kimi qəbul olundu. Prezident İlham Əliyevin 2009-cu ildə imzaladığı Sərəncama əsasən, 9 noyabr Dövlət Bayrağı Günü elan edilib.

**9 noyabr** - Faşizm, İrqçilik və Antisemitizmlə Beynəlxalq Mübarizə Günüdür. 49 ölkədən 500-dən çox təşkilatı özündə birləşdirən irqçilik əleyhinə "UNITED" beynəlxalq şəbəkəsinin təşəbbüsü ilə təsis edilmişdir. Məhz bu tarixin seçilməsi 1938-ci il noyabrın 9-dan 10-na keçən gecə Almaniyada Üçüncü Reyxin yəhudilərə qarşı başlatdığı zorakılıq aktları ilə əlaqədardır. Həmin gün tarixə "Kristal gecə" və ya "Sınıq pəncərələr gecəsi" adı ilə düşmüşdür.

**10 noyabr** - Sülh və İnkişaf Naminə Ümumdünya Elm Günüdür. 1988-ci ildə Beynəlxalq elm və sülh həftəsinin keçirilməsi ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası qətnamə qəbul etmişdir. 2001-ci ildə UNESCO-nun Baş konfransının 31-ci sessiyasında Elm Gününün qeyd edilməsi qərarı rəsmi şəkildə elan olunmuşdur.

**12 noyabr** – Azərbaycanda Konstitusiya Günüdür. 1995-ci il noyabrın 12-də Azərbaycanda çoxpartiyalılıq əsasında ilk parlament seçkiləri və yeni Konstitusiyanın qəbulu ilə bağlı referendum keçirilib. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də qüvvəyə minmiş, Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə 12 noyabr - Konstitusiya Günü elan edilmişdi.

**13 noyabr** - Ümumdünya Xeyirxahlıq Günüdür. Ümumdünya Xeyirxahlıq Hərəkatının birinci konfransı 1988-ci ilin bu günü Tokioda açılmışdır. Aparılan araşdırmalara görə, xeyirxah əməllərimizin sayı nə qədər çox olsa, özümüzü bir o qədər xoşbəxt hiss edirik. Alimlərin fikrincə, gündəlik işlərdə ətrafdakılara minnətdarlıq, şəfqət və digər xeyirxah hisslərlə yanaşan insanlar dünyaya nikbin baxır, fiziki cəhətdən sağlam olur, daha ahəngdar həyat yaşayırlar.

**16 noyabr** – BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu UNESCO-nun təsis edildiyi gündür. 1945-ci ildə yaradılan təşkilatın məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək etməkdir. Dünyanın 193 dövləti bu təşkilatın üzvüdür.

**16 noyabr** - Beynəlxalq Tolerantlıq Günüdür. 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis edilib. UNESCO Baş Konfransının 28-ci sessiyasında qəbul olunmuş tolerantlıq prinsiplərinə dair Bəyannamədə vurğulanır ki, "dözümlülük, ilk növbədə, insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir", bununla yanaşı, "dözümlülük, insan hüquqlarına dair beynəlxalq hüquq aktlarında müəyyən olunmuş normaları iddia edən, həqiqətin mütləqləşdirilməsindən və ehkamçılıqdan imtina edən anlayışdır".

**17 noyabr** – Azərbaycanda Milli Dirçəliş Günüdür. 1988-ci ildə Bakıdakı Lenin (indiki Azadlıq) meydanında ermənilərin Qarabağ iddialarına və azərbaycanlı əhalinin Ermənistandan deportasiyasına etiraz olaraq fasiləsiz mitinqlər başlayıb. Dekabrın 4-dək davam edən mitinqlər SSRİ-də ən böyük kütləvi çıxışlar idi və Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü.

**20 noyabr** - Ümumdünya Uşaqlar Günüdür. 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayramdır. Bayram BMT-nin dünya uşaqlarının əmin-amanlığının təmin olunmasına, yaxşılaşdırılmasına yönəldilən fəaliyyətinin möhkəmləndirilməsi məqsədi daşıyır.

**20 noyabr** - Tövbə və Dua Günüdür. Protestant kilsəsi üçün xüsusi gündür. Kilsə ilinin sonuncu bazar günündən əvvəlki çərşənbə günü qeyd olunur. Əsasən almandilli ölkələrdə (Almaniya, İsveçrə, Avstriya) populyardır.

**21 noyabr** - Ümumdünya Salam Günüdür. 1973-cü ildən etibarən hər il keçirilir. Bu günü Maykl və Brayn Makkomak qardaşları müharibənin qızğın vaxtında beynəlxalq gərginliyin artmasına etiraz əlaməti olaraq fikirləşiblər. Onlar səmimi salamlarla dolu olan məktubları dünyanın bütün nöqtələrinə göndərmiş və məktubu oxuyandan belə bir məktubdan heç olmasa daha on nəfərə göndərməyi xahiş etmişdilər.

**21 noyabr** - Siqaretdən İmtina Günüdür. İlk dəfə 1977-ci ildə Amerika Onkologiya Cəmiyyəti tərəfindən təklif olunan bu gün dünyanın əksər ölkələrində qeyd edilir. Məqsəd tütündən asılılığın azaldılmasına kömək etmək, əhalinin bütün təbəqələrini və ixtisas həkimlərini siqaretə qarşı mübarizəyə yönəltmək, siqaret çəkməyin zərərini və tütünün sağlamlığa zərərli təsirləri barədə ictimaiyyəti məlumatlandırmaqdır.

**25 noyabr** - Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günüdür. 1999-cu ildə BMT Baş Assambleyası tərəfindən təsis edilib. Simvolu olan ağ lent qadın zorakılığının bütün formalarına etirazın, analığın qorunmasının rəmzidir. Statistik rəqəmlər göstərir ki, bütün dünyada qadınların təxminən 70 faizi məişət zorakılığından əziyyət çəkir. BMT-nin məlumatına görə, dünyada qadınların və qızların 35 faizi ömründə ən azı bir dəfə fiziki və ya cinsi zorakılığa məruz qalır.

**26 noyabr** – Əhd Günüdür. Bəhailikdə birlik və vərəsəlik bayramı. İnanca görə, Tanrı vaxtaşırı öz iradəsini və təlimini Öz Təzahürlərindən biri ilə açıqlayır. Bu yolla o, insanları inkişaflarının müəyyən mərhələsində həmin dövr üçün lazımlı qanun-qaydalarla təmin edir, təlimat verir.

**28 noyabr** – Ümumdünya Mərhəmət Günüdür. Bu günün keçirilməsi hind şairi, jurnalist və ictimai xadim Pritiş Nandinin adı ilə bağlıdır. Günün əsas ideyası "ahimsa"ya əsaslanan həyat tərzinin təbliğidir. Caynizmin təməl prinsiplərindən olan "ahimsa" heç bir canlıya qarşı şiddət tətbiq etməmək deməkdir. İlk dəfə 2012-ci ildə qeyd edilən Mərhəmət Günü heyvanların taleyinə, planetdəki canlıların şəfqət ehtiyacına və vegeterianlığın önəminə həsr olunmuşdu.

# MÖVLUD QƏNDİLİ VƏ VƏHDƏT HƏFTƏSİ



İslam aləmində elə gecələr var ki, müqəddəs sayılırlar və xüsusi təmtəraqla qeyd olunurlar. Qəndil adlanan həmin günlərdə gündüzlər oruc tutulur, gecələr isə dualar oxunur və namaz qılınır.

Qəndil gecələri inancı ərəb cəmiyyətində ortaya çıxsa da, ənənə halına gətirilməsi və müxtəlif adətlərlə zənginləşdirilməsi türklərin sayəsində olmuşdur. Elə müqəddəs gecələrin "qəndil" adlandırılması da türklərin adı ilə bağlıdır. Belə ki, elektrik enerjisinin olmadığı dövrlərdə, daha dəqiq desək, Osmanlı padşahı II Səlimin hakimiyyəti illərində məscidlərin minarələri arasından qəndillərlə, yəni lampalarla bəzədilmiş, dini mətnlər yazılmış iplər asılırmış. Ərəblər isə həmin günləri "gecə" mənasını verən "leyl" adlandırmışlar.

Həmin müqəddəs gecələrdən biri də bu il noyabr ayının 8 və 15-nə təsadüf edəcək Mövlud qəndilidir. Ərəb dilindən tərcümədə mövlud "doğum" deməkdir. Dini termin olaraq isə İslam müqəddəslərinin, xüsusilə, Həzrət Peyğəmbərin (s) doğum günü münasibətilə təşkil edilən təntənəli mərasimlərə deyilir. Nə Qurani-Kərimdə, nə də hədislərdə Mövlud qəndilinin keçirilməsinə dair hər hansı məlumat var. Çünki Məhəmməd peyğəmbərin (s) dövründə belə bir gün qeyd olunmurdu. İlk dəfə Mövlud qəndili Peyğəmbərin (s) Mədinəyə hicrətindən 300 il sonra Misirdə Fatimilərin hakimiyyəti dövründə qeyd olunmağa başlanılmışdır.

Şiələr Rəbiüləvvəl ayının 17-dən 18-nə keçən gecəni, sünnilər isə 11-dən 12-nə keçən gecəni Mövlud gecəsi adlandırırlar. Buna səbəb Həzrət Məhəmmədin (s) təvəllüdü ilə bağlı tarixi mənbələrdə iki fərqli versiyanın olmasıdır. Allah Rəsulunun (s) doğum gününü ixtilafa yox, vəhdətə çevirmək məqsədilə rəbiüləvvəl ayının 12-dən 17-nə kimi olan müddət Vəhdət həftəsi elan edilmişdir. Bir sıra ölkələrdə şiə və sünni məzhəbləri arasında həmrəylik yaratmaq məqsədilə bu həftə ərzində beynəlxalq səviyyəli tədbirlər keçirilir. Vəhdət həftəsi hazırda İslam dünyasında ehtiyac duyulan həmrəyliyin və birliyin möhkəmləndirilməsi üçün gözəl fürsətdir.

# BƏƏ-də "İbrahim ailəsinin evi" tikiləcək



Birləşmiş Ərəb Əmirliklərində sülh, dini dözümlülük və dünyanın nifrətdən xilasının simvolu olaraq 3 səmavi dinin məbədindən ibarət "İbrahim ailəsinin evi" tikiləcək. Bu barədə "religionnews" xəbər verib.

Ötən ilin fevralında BƏƏ-yə səfəri zamanı Papa Fransisk və Qahirənin əl-Əzhər məscidinin imamı Əhməd əl-Tayeb bütün dindarları ümumi rifah naminə və dini ekstremizmə qarşı mübarizədə birləşməyə çağıran əlamətdar sənəd imzalamışdılar. O zaman pontifik imama "Biz mümkün olmayanı etdik" – demişdi.

"Sənəd dünyanı daha yaxşı tərəfə dəyişdirmək əzmimizdən xəbər verir. Müsəlman ərəb dünyasında İbrahim ailəsinin evini tikməklə biz şüaları nifrət və zülmət buludlarını dağıdacaq, mübahisə və qan tökməyə son qoyacaq mayakın əsasını qoyuruq", - deyə Əbu Dabinin yüksək vəzifəli rəsmisi Məhəmməd Xəlifə əl-Mübarək bildirib.

Kilsə, sinaqoq və məscid üçlüyündən ibarət olacaq məbəd paytaxt Əbu Dabi yaxınlığındakı Səadiyat adasında inşa ediləcəkdir. Bildirilir ki, bura muzeyə və ya turistik məkana çevrilməyəcəkdir, əksinə, müxtəlif dinlərin nümayəndələri burada öz ibadətlərini yerinə yetirəcəkdir. Məbədin tikintisinin 2022-ci ildə başa çatacağı nəzərdə tutulub.

Qeyd edək ki, hazırda BƏƏ-də yüz minlərlə xristian və təxminən üç min yəhudi yaşayır.

Səhifəni hazırladı: *Güney Namazova*

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**"Masallı rayonu Mahmudavar kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 108

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Hacırza Oğul oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Kərimova Reyhan Qurban qızı və Əliyev Hacırza Mirzərza oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 oktyabr 2019-cu il

**«Masallı rayonu Təklə kəndi «İmam Zaman» məscidi» dini icması**

Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C – 904

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nuriyev Muxtar Qulam oğlu və Tağıyeva Ziyvər Şahbala qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hüseynov Güləhməd Məmməd oğlu, Quliyev Mübariz İsmayıl oğlu və Nuriyev Qulam Muxdar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Nuriyev Muxtar Qulam oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Nuriyev Elman Muxdar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 oktyabr 2019-cu il

**"Masallı rayonu Türkoba kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 19 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 443

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Muruvvət Mirə oğlu, Rzayev Şirvan Gülqasım oğlu, Ağayev Mirzəli Nüsrət oğlu və Rzayev Əhməd Mirağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rzayev Abasəli Sultanağa oğlu, Əliyev Mehman Ayaz oğlu, Seyid-Zadə Seyidyar Mirəziz oğlu, Ağayev Qasım Mirzəli oğlu, Xəlilov Ruhid Tofiq oğlu, Nəsirov Yaşar İslam oğlu, Həşimov Şamo Xansuvar oğlu, Rzayev Məzahir İslam oğlu, Əliyev Amil Zülfi oğlu və Rzayev Qiyas Mirağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**« Zərdab rayonu Qoruqbağı kəndi «Cümə» məscidi » dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2016-cı il
Qeydiyyat №-si: 100116D – 727

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Müseyib Hüseyn oğlu, Süleymanov Məzahir Şamil oğlu, Qurbanov Ağa Sarı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əhmədov Elvüqar Tahir oğlu, Lətifov Elnur Ömər oğlu, Hüseynov Nazim Hüseyn oğlu, Mirzəyev Adəm Qabil oğlu, Mirzəyev Eldəniz Qəbil oğlu və Talıbov İsmət Aqil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mustafayev Möhübbət Seyfəddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Talıbov İsmət Aqil oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**« İmişli rayonu Yuxarı Qaralar kənd məscidi » dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 866

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qarayev Əlövsət Səddər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Səmədov Səməd Əbulfət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Qarayev Əlövsət Səddər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Səmədov Səməd Əbulfət oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**"Lerik rayonu Hamarmeşə kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 721

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şirinbacı Mircəfər qızı Hacıyeva dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Elman Məmməd oğlu Məmmədov dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**"Ağdaş rayonu Xosrov kəndi «Hacı Bulud» məscidi" dini icması**

Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 128

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səfərov Məhərrəm Səfər oğlu, Şavəddinov Nazim Əziz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Osmanov Rövşən Tacir oğlu, Əzizov Sübhan Ehsan oğlu, Kərimov Sədrəddin Nəsrəddin oğlu və Şavəddinov Əzim Nazim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**"Lənkəran rayonu Osakücə kənd məscidi məscidi" dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-10

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəfiyev Zəqəm Teymur oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Adiyev Elxan Səyad oğlu, Quliyev Zeynal Kərim oğlu və Həsənova Fazilə Bayram qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2019-cu il

**"Balakən rayonu Cederovtala kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 145

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xoçberov İsmayıl Abdurahman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Xoçberov Həmzət Paşayeviç dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 oktyabr 2019-cu il

**«Şəki şəhəri "Ömər Əfəndi" məscidi» dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 345

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Kamran Əjdər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ağayev Zaur Elman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Məmmədov Kamran Əjdər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədli Asim Kamran oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 oktyabr 2019-cu il

## E L A N

"Zaqatala rayonunun Cimcimax kəndində fəaliyyət göstərən kənd məscidi" dini icması (400 nömrəli, 19.01.2001-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 oktyabr 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

400 nömrəli, 19.01.2001-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Zaqatala rayonunun Cimcimax kəndində fəaliyyət göstərən kənd məscidi" dini icmasına məxsus şəhadətnamə itirildiyi üçün etibarsız sayılır.

"Zaqatala rayonu Kebeloba kənd məscidi" dini icması (392 nömrəli, 19.01.2001-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 oktyabr 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

"Zaqatala rayonu Mazıx kəndi "Cümə" məscidi" dini icması (1308Z1-451 olan, 03.03.2008-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 oktyabr 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

30.09.2010-cu il tarixli, 100110A4-499 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Qax rayonu Qum kəndi "Cümə" məscidi" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.

01.04.2010-cu il tarixli, 100110A2-270 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Qax rayonu Qaysarlı kəndi "Cümə" məscidi dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.

"Saatlı şəhəri "Həzrət Əli" məscidi" dini icması (1308S1-469 nömrəli, 29 aprel 2008-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 25.10.2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

"Saatlı rayonu Əlisoltanlı kənd" dini icması (1305A1-326 nömrəli, 07 iyul 2005-ci il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 25.10.2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

31.07.2007-ci il tarixli, 1307Ağ1-404 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN
№ 10 (339) / OKTYABR 2019-cu il

# Filippində 100 metrlik Müqəddəs Məryəm heykəli ucaldılır



Hazırda tikintisi gedən 100 metrlik Müqəddəs Məryəm heykəlinin təntənəli açılışı 2021-ci ildə - Xristianlığın bu torpaqlara gəlişinin 500 illiyi münasibətilə nəzərdə tutulub.

“Bütün Asiyanın anası” və ya “Sülh qülləsi” adlandırılan heykəlin dizayneri bu yaxınlarda dünyasını dəyişmiş filippinli heykəltəraş Eduardo de los Santos Kastrillodur. Heykəl Batanqas şəhərində filippinlilərin ziyarət yeri sayılan “Məryəm dağı”nın zirvəsində ucaldılıb.

Heykəlin inşası başa çatdıqdan sonra dünyadakı ən hündür Müqəddəs Məryəm heykəli olacağı planlaşdırılır. Hazırda ən hündür heykəl 1983-cü ildə Venesuelada inşa edilən 47 metrlik Müqəddəs Məryəm heykəlidir.

Qeyd edək ki, Müqəddəs Məryəm obrazı Cənubi Asiyanın bütün xalqları və ölkələri arasında birlik və sülhü simvolizə edir.

# Tbilisi 2021-ci ilin “Dünya kitab paytaxtı” statusuna layiq görülüb

UNESCO Gürcüstan paytaxtı Tbilisini 2021-ci ilin “Dünya kitab paytaxtı” elan edib. Bu barədə qurumun baş direktoru Odre Azule məlumat verib.

Onun sözlərinə görə, qərar dünya kitab paytaxtının məsləhətçiləri komitəsinin tövsiyəsi əsasında qəbul edilib. Komitənin iclası 2019-cu ilin iyununda İsveçrədə keçirilib və iclasın əsas proqram şüarı “Və növbəti kitabınız..?” olub.

Məlumat üçün qeyd edək ki, 2019-cu ildə dünya kitab paytaxtı Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhəri, 2020-ci ildə isə Malayziyanın paytaxtı Kuala-Lumpur elan olunub.

# Tallində plastik tullantılardan yol çəkilib



Estoniyanın paytaxtında Avropada ilk dəfə plastik tullantılardan yol çəkilib.

Tallin küçələrinin birində piyada keçidi plastik tullantılardan hazırlanmış yol örtüyü ilə üzlənib. Şəhər rəhbərliyinin bu addımı bütün Avropa ölkələri tərəfindən alqışlanıb.

Sözügedən məhsul Şotlandiya şirkətlərindən biri tərəfindən hazırlanıb. Tədqiqatlar göstərib ki, bitumla qarışdırılmış bu məhsul uzunömürlüdür. Təbii ki, o, havanın temperaturu +30-u keçməyən ölkələr üçün daha uğurludur.

Maraqlı faktlardan biri də odur ki, bir kilometrlik yolun çəkilməsinə təxminən 684 min plastik butulka və ya 1,8 milyon birdəfəlik plastik paket sərf olunur.

## Yadigar söz

**Ömər Faiq Nemanzadə**
*(Azərbaycanın görkəmli ədibi)*

***Millət hürriyyətin və istiqlalın ləzzətini yalnız öz milli dilində anlaya bilər.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Noyabr - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:48 | 07:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 05:49 | 07:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 05:50 | 07:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 05:51 | 07:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 05:52 | 07:14 | 12:24 | 15:52 | 17:48 | 18:52 |
| 6 | 05:53 | 07:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 05:54 | 07:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 05:55 | 07:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 05:56 | 07:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 05:57 | 07:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 05:58 | 07:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 05:59 | 07:22 | 12:24 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 06:00 | 07:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 06:01 | 07:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 06:02 | 07:26 | 12:25 | 15:43 | 17:39 | 18:41 |
| 16 | 06:03 | 07:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 06:04 | 07:28 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 18 | 06:05 | 07:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 06:06 | 07:31 | 12:26 | 15:40 | 17:36 | 18:39 |
| 20 | 06:07 | 07:32 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 21 | 06:08 | 07:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 06:09 | 07:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 06:10 | 07:35 | 12:27 | 15:38 | 17:34 | 18:37 |
| 24 | 06:11 | 07:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 06:12 | 07:37 | 12:27 | 15:37 | 17:33 | 18:36 |
| 26 | 06:13 | 07:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 06:14 | 07:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 06:15 | 07:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 06:16 | 07:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 06:17 | 07:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Sülh üzrə Nobel mükafatını afrikalı dövlət rəsmisi aldı



Sülh üzrə Nobel mükafatı Eritreya ilə sərhəd münaqişəsini həll etdiyinə görə Efiopiyanın Baş naziri Abi Əhməd Əliyə verilib.

Bu ilin laureatı 2018-ci ilin aprelində Baş nazir postuna keçib və dərhal qonşularla danışıqlara başlayıb. Bir neçə aydan sonra ölkələr barışıq bəyannaməsi imzalayıb, ticarət və diplomatik münasibətləri, telefon və hava əlaqələrini bərpa ediblər. Bundan əlavə, dəniz yolu olmayan Efiopiyaya Eritreya limanlarından istifadə etmək imkanı verilib. Danışıqların vasitəçiləri beynəlxalq üçlük - ABŞ, Böyük Britaniya və Norveç olub.

İki Afrika dövləti arasındakı qarşıdurma on illərlə davam edib. 1947-ci ildə Eritreya muxtariyyət statusu qazanaraq Efiopiya ilə ortaq bir federasiyanın tərkibinə daxil olub. Lakin sonra federasiya dağılıb və Eritreya müstəqillik müharibəsinə başlayıb. Yalnız 90-cı illərin əvvəllərində müstəqil dövlət olub və BMT-yə qəbul edilib. Ancaq ölkələr arasında düşmənçilik davam edib. 1998-ci ildə bu, yeni silahlı qarşıdurmaya səbəb olub və iki il ərzində 70 mindən çox insan ölüb.

Qanlı qarşıdurmaya son qoyan Abi Əhməd Əli Nobel sülh mükafatına pul ekvivalenti olaraq doqquz milyon İsveç kronu alacaq. Bu, təxminən 900 min dollardır. Mükafatlandırma mərasimi dekabrın 10-da Osloda keçiriləcək.

Qeyd edək ki, Nobel sülh mükafatı dünyada sülh və əmin-amanlıq uğrunda əmək sərf etmiş, mübarizə aparmış şəxslərə və təşkilatlara təqdim edilir.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894